QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 204 (5435) 8 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Avropa İttifaqı Azərbaycanla əlaqələrə xüsusi diqqət göstərir"

## *Prezident İlham Əliyev Avropa İttifaqı Şərq Tərəfdaşlığının xüsusi tapşırıqlar üzrə səfirlərindən ibarət nümayəndə heyətini qəbul edib*



Səh 2

### Vladimir Evseev: Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında əhəmiyyətli rol oynayır

Bax 11

*Azərbaycan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin formalaşmasında əhəmiyyətli rol oynayır. Bu sözləri "Pars Todey" saytına müsahibəsində MDB İnstitutunun direktor müavini Vladimir Evseev deyib. O bildirib ki, Rusiya ilə Azərbaycan arasında dəmir yolu mövcuddur və bu yol fəaliyyət göstərir. Rəşt-Astara yolunun çəkilişinə...*

### "Müstəqil Azərbaycanın ictimai-siyasi həyatında qadınların rolu"

Bax 7

*Dünən Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının və YAP Suraxanı rayon təşkilatının birgə təşəbbüsü ilə partiyanın yaradılmasının 25 illik yubileyi münasibətilə "Müstəqil Azərbaycanın ictimai-siyasi həyatında qadınların rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə YAP-ın Suraxanı, Sabunçu, Xəzər, Nizami və Şuşa rayon təşkilatlarının qadınlar şuralarının üzvləri iştirak ediblər. YAP Suraxanı rayon təşkilatının...*

### Daha bir neçə aviaşirkət Heydər Əliyev Beynəlxalq Aeroportunda "Terminal 2"dən uçuşlar həyata keçirəcək

Bax 5

*Daha bir neçə aviaşirkət Heydər Əliyev Beynəlxalq Aeroportunda "Terminal 2"dən uçuşlar həyata keçirəcək. AZƏRTAC xəbər verir ki, bu barədə Heydər Əliyev Beynəlxalq Aeroportundan məlumat verilib. Bildirilib ki, Heydər Əliyev Beynəlxalq Aeroportu "Terminal 2"nin şimal girişindən uçuşların başlanması ilə əlaqədar olaraq, bu terminaldan noyabrın 16-dan...*

Heydər Əliyev Mərkəzində müasir Çin rəssamlarının sərgisi açılıb



3

Novruz Məmmədov: "Gənclər YAP-a üzv olmağı özlərinə qürur hesab edirlər"



4

Madriddə "İslam həmrəyliyi və dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib



4

Milli Məclis komitələrinin birgə iclasında 2018-ci il dövlət büdcəsi haqqında layihə müzakirəyə çıxarılıb



6

Erməni mətbuatı: Regionda Ermənistan adlı dövlət sanki yoxdur



5

Azərbaycan Türkiyə ilə "Cənub Qaz Dəhlizi"nin genişləndirilməsini müzakirə edib



5

13

Vassal ölkənin görünməyən tərəfləri



11

ABŞ konqresmenindən və qubernatorundan Azərbaycana və Türkiyəyə qarşı aşkar HƏYASIZLIQ



16

Azərbaycanın kişi şahmatçılarından ibarət yığması Avropa çempionu olub



# “Avropa İttifaqı Azərbaycanla əlaqələrə xüsusi diqqət göstərir”

## *Prezident İlham Əliyev Avropa İttifaqı Şərq Tərəfdaşlığının xüsusi tapşırıqlar üzrə səfirlərindən ibarət nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa İttifaqı Şərq Tərəfdaşlığının xüsusi tapşırıqlar üzrə səfirlərindən ibarət nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, hazırda Avropa İttifaqı Şurasına sədrlik edən Estoniyanın Avropa İttifaqı Şərq Tərəfdaşlığında xüsusi səlahiyyətli səfiri Yaan Reynhold Estoniya Respublikasının Baş naziri Yuri Ratasın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Avropa İttifaqı rəhbərliyi və qəbulda iştirak edən bütün səfirlər adından bildirdi ki, təmsil etdiyi qurum Azərbaycanla əlaqələrə xüsusi diqqət göstərir və Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çox müsbət şəkildə inkişaf edir. Yaan Reynhold dedi ki, yeni sazişlə bağlı əhəmiyyətli irəliləyiş əldə edilib və Avropa İttifaqı bu istiqamətdə səylərini bundan sonra da əsirgəməyəcək. Yaxın vaxtlarda Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığı Sammitinə toxunan səfir qeyd etdi ki, Avropa İttifaqı Şərq Tərəfdaşlığına və bu tərəfdaşlıqla bağlı olan layihələrə tam sadiqdir və bu əməkdaşlığı yüksək qiymətləndirir. Diplomat bir daha vurğuladı ki, Avropa İttifaqı-Azərbaycan əlaqələri pozitiv və dinamik şəkildə inkişaf edir. Azərbaycan Prezidentinin Brüsselə son səfərinə toxunan Yaan Reynhold bildirdi ki, təmsil etdiyi təşkilat bu səfərə böyük önəm verir və təsadüfi deyil ki, səfərin növbəti günündə yeni saziş üzrə danışıqlara başlanılıb. O, eyni zamanda, dedi ki, Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı mövcud potensialın tam həyata keçirilməsi baxımından möhkəm əsaslara söykənir. Səfir bildirdi ki, demokratik islahatlar sahəsində Azərbaycanın əldə etdiyi inkişaf önəmlidir və Azərbaycanın dini azadlıq, tolerantlıq, mədəniyyətlərarası dialoq sahəsində əldə etdiyi təcrübə çox dəyərlidir. Yaan Reynhold, xüsusilə, energetika sahəsində strateji əməkdaşlığın böyük önəm daşıdığını dedi.

Dövlətimizin başçısı Avropa İttifaqı-Azərbaycan əlaqələri ilə bağlı deyilən fikirlərə görə minnətdarlığını bildirdi. Bu ilin fevralında Brüsselə səfərinə toxunan Prezident İlham Əliyev qeyd etdi ki, bu səfər Şərq Tərəfdaşlığı çərçivəsində və ümumilikdə Avropa Komissiyası ilə əlaqələrin inkişafında böyük rol oynayıb. Dövlətimizin başçısı Azərbaycanla Avropa İttifaqı əlaqələrinin genişlənməsi baxımından Şərq Tərəfdaşlığı təşəbbüsünün əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın təşkilata üzv olan 10-dan çox ölkə ilə strateji tərəfdaşlığa dair sənədlərin imzalanmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycanla Avropa İttifaqı arasında sazişə toxunan dövlətimizin başçısı bu sahədə də işlərin çox müsbət istiqamətdə irəlilədiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, siyasi əlaqələrimiz uğurla inkişaf edir, əməkdaşlığımız çoxşaxəlidir və geniş sahələri, o cümlədən demokratik inkişaf, multikulturalizm, iqtisadi və digər sahələri əhatə edir. Avropanın Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu deyən dövlətimizin başçısı dedi ki, investisiya, enerji təhlükəsizliyi, nəqliyyat, sosial müdafiə sahələrində də əlaqələr inkişaf edir.

Prezident İlham Əliyev belə geniş tərkibdə nümayəndə heyətinin səfərini uğurlu əməkdaşlığımızın təzahürü kimi dəyərləndirdi və ümidvar olduğunu bildirdi ki, bu səfər nümayəndə heyətinin üzvlərinin Azərbaycanda gedən inkişaf proseslərinin şahidi olması və ölkəmiz haqqında daha çox informasiya əldə edilməsi üçün yaxşı imkan yaradacaq. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Estoniya Respublikasının Baş naziri Yuri Ratasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Estoniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycanda neft sənayesi işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 817-VQD nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Ədliyyə orqanlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının fəaliyyətinin təmin edilməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 dekabr tarixli 275 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının Döyüş Bayrağı haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının Döyüş Bayrağının təsviri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli 381 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

# “Azərbaycanla Əfqanıstan arasında güclü tərəfdaşlıq əlaqələri mövcuddur”

## *Prezident İlham Əliyev Əfqanıstanın maliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Əfqanıstan İslam Respublikasının maliyyə naziri Əklil Əhməd Hakiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin olduğunu qeyd edərək əməkdaşlığımızın artıq siyasi dialoq kimi mühüm sahəni və digər istiqamətləri əhatə etdiyini dedi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişafında dövlət başçıları arasında keçirilən görüşlərin əhəmiyyətini vurğulayaraq Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin ölkəmizə səfərini və onunla müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı yüksək səviyyədə keçirilən görüşlər və danışıqlarda əldə edilmiş razılaşmaların tam şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

Ölkəmizin Əfqanıstanı dəstəklədiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycan hərbi qulluqçularının Əfqanıstanda sülhməramlı missiyada iştirakı və logistik təchizatda fəal rolunun əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı, eyni zamanda, investisiya və iqtisadiyyat sahəsində



əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirdi.

Əfqanıstan İslam Respublikasının maliyyə naziri Əklil Əhməd Hakimi, ilk növbədə, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Nazir Azərbaycanın ölkəsinə verdiyi dəstəyin Əfqanıstan rəhbərliyi və xalqı tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. O qeyd etdi ki, səfərinin əsas məqsədi əldə olunmuş razılaşmaların həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirəsindən ibarətdir.

Dövlətimizin başçısı Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan Prezidentinə çatdırmağı xahiş etdi. Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Heydər Əliyev Mərkəzində müasir Çin rəssamlarının sərgisi açılıb



***Noyabrın 6-da Bakıda, Heydər Əliyev Mərkəzində müasir Çin rəssamlarının əsərlərindən ibarət "Ulduzlar toplusu" sərgisinin açılışı olub. Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər. AZƏRTAC xəbər verir ki, tədbir Çindən gəlmiş rəqs qrupunun milli rəqsləri təqdim etməsi ilə başlanıb. Mərasimdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Mərkəzin ənənəvi olaraq layihələr həyata keçirməsindən söhbət açıb, budəfəki layihənin müasir Çin incəsənətinə həsr edildiyini bildirib.***

Bu layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə, xüsusilə Çinin Azərbaycandakı səfiri Vey Cinhuaya və səfirliyin əməkdaşlarına təşəkkür edən A.Ələkbərov sərgidə 20 rəssamın və heykəltəraşın 40-dək əsərinin təqdim edildiyini bildirib. O deyib: "Sərgidə yer alan əsərlərin hər biri nadirliyi ilə fərqlənir. Biz uzun müddətdir ki, Heydər Əliyev Mərkəzində qonaqlarımızı Çin incəsənəti ilə tanış etməyi arzu edirdik. Nəhayət, bu imkan yarandı". Kolleksiyaçı Con Dodelandı və sərginin kuratoru Ami Barakı səhnəyə dəvət edən A.Ələkbərov Heydər Əliyev Mərkəzinin gələcəkdə gənc kolleksiyaçı ilə bir sıra layihələr həyata keçirəcəyini diqqətə çatdırdı.









Con Dodeland Heydər Əliyev Mərkəzində olmaqdan və bu möhtəşəm yerdə çıxış etməkdən məmnun olduğunu bildirərək dedi: "Bu bina nəinki gözəl memarlığı baxımından, həm də burada təşkil edilən sərgilərin keyfiyyəti baxımından bütün dünyada artan nüfuzu ilə seçilir. Artıq bir neçə ildir ki, mən yeni nəsil Çin rəssamlarına dəstək verirəm. Burada olmağımızı, bu sərgini təqdim etmək imkanımızı yüksək dəyərləndirirəm. Həmin rəssamlar öz zəmanəsinin ən istedadlı və yenilikçi rəssamları sırasındadırlar. Onlar əvvəlki nəslə bir növ çağırış olan valehedici sənət üslubu ilə seçilən güclü avanqard əsərləri sahəsinə öz dünyagörüşünü gətirdilər. Bu, olduqca bənzərsiz bir addımdır".

Sərginin kuratoru Ami Barakla xüsusi əməkdaşlıq etdiyini diqqətə çatdıran kolleksiyaçı onu da vurğuladı ki, sərhədsiz incəsənətlə bağlı eyni duyğu ətrafında bir çox insanları bir araya gətirmək mümkündür. "İpək Yolunun uzun tarixi baxımından Heydər Əliyev Mərkəzi ilə gənc rəssamlar arasında bu təmas həqiqətən əhəmiyyətlidir. Çünki qədim ənənələrlə müasirliyin qovuşduğu bir yerdə tamamilə yeni İpək Yolu salınmaqdadır. Ümid edirəm ki, siz yeni rəssamların əsərlərinin sərgiləndiyi "Ulduzlar toplusu"nu yüksək dəyərləndirəcəksiniz və burada iştirak edən hər bir rəssam həmin ulduz toplusunun bir hissəsidir. Ulduz toplusu dedikdə, mən məhz incəsənət aləminin sabah böyük ulduzları olacaq bu gəncləri nəzərdə tuturam. Onlar öz gücləri, öz dünyagörüşü ilə qlobal bir hərəkatın bir hissəsinə çevriləcəklər", - deyə Con Dodelan qeyd edib. O vurğulayıb ki, bu sərgi vasitəsilə Şanxay, Pekin və Bakı arasında bir çox əməkdaşlıq formalarının əsası qoyulacaq. Kolleksiyaçı Azərbaycan rəssamlarının da Çinə dəvət ediləcəyinə ümidvar olduğunu söyləyib və sərginin təşkilində göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Layihənin kuratoru Fransada və digər ölkələrdə bir sıra sərgilərin təşkilatçısı olmuş Ami Barak mərasimdə çıxış edərək Heydər Əliyev Mərkəzində olmaqdan məmnunluq hissi duyduğunu bildirib. Sərginin əvvəlcə Tbilisidə nümayiş etdirildiyini qeyd edən kurator deyib: "Bizim arzumuz idi ki, bu sərgini məhz Bakıya gətirək. Nəhayət, bu gün arzumuz reallığa çevrildi. Bu, səyyar sərgidir və o deməkdir ki, biz bu yolla irəliləyərək bu istiqamətdə addımlarımızı davam etdirəcəyik. Əslində bu sərgi bizim böyük layihəmizin bir hissəsidir. Hər hansı ticari münasibətlərə gəldikdə, burada sırf malların və ya əmtəənin ticarətindən söhbət getmir, həmçinin mədəniyyət mübadiləsi də baş verir. Bu sərgi çərçivəsində biz olduqca istedadlı, zəngin biliyi olan bacarıqlı rəssamların əsərlərini təqdim edirik. Onlar öz zəkası ilə seçilən rəssamlardır ki, artıq beynəlxalq məkanda da öz yerlərini tutublar və gündən-günə mövqelərini daha da gücləndirirlər. Biz onların əsərlərini burada sərgiləməkdən şərəf duyuruq".

"Ulduzlar toplusu" sərgisi müasir Çin incəsənəti, bu ölkənin mədəniyyətindəki yeni çalarlarla yaxından tanışlıq imkanı yaradır.

Sonra qonaqlar sərgi ilə tanış oldular. Ekspozisiya Heydər Əliyev Mərkəzində 2018-ci il fevralın 1-dək davam edəcək.

# Madriddə "İslam həmrəyliyi və dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib

*Prezident İlham Əliyevin elan etdiyi "İslam Həmrəyliyi İli" çərçivəsində keçirilən konfransda geniş tərkibdə Azərbaycan nümayəndə heyəti iştirak edib*




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elan etdiyi "İslam Həmrəyliyi İli" çərçivəsində noyabrın 6-da İspaniyanın paytaxtı Madriddə "İslam həmrəyliyi və dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi" mövzusunda beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, konfransda Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları Rafael Hüseynov, Hikmət Məmmədov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, həmçinin ənənəvi dini konfessiyaların başçıları - Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein və Azərbaycanda katolik icmasının başçısı Vladimir Fekete daxildir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, İspaniyanın Ədliyyə Nazirliyi və Evsen Fondunun birgə təşkilatçılığı ilə keçirilən konfransdan əvvəl yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri üçün mətbuat konfransı olub. Jurnalistlərin suallarını cavablandıran şeyxülislam Allahşükür Paşazadə dünyada nə dinlər, nə də dindarlar arasında münaqişələrin olmadığını diqqətə çatdırıb. Bildirib ki, belə konfransların keçirilməsində əsas məram da dinlərin birgə fəaliyyəti, əməkdaşlığı ilə din adından məkrli, siyasi məqsədlər üçün sui-istifadənin, dünyadakı terrorların, müharibələrin qarşısının alınmasına yardım etməkdir.

Daha sonra konfrans öz işinə başlayıb. Konfransı açan "Evsen Group"un rəhbəri Əli Evsen tədbirin əhəmiyyətindən danışıb.

İspaniyanın ədliyyə naziri Rafael Katala Polo bu tədbiri sülhə inamın artmasına daha bir addım kimi qiymətləndirib. O qeyd edib ki, sülhü bərqərar etmək təkcə hakimiyyətin və dövlətin işi deyil, sivil cəmiyyətlər də bunun üçün çalışmalıdırlar. İspaniya qanunvericiliyi bütün dinlərin işbirliyində olmasını təbliğ edir. Bu ölkədə daim xristianlar, müsəlmanlar və yəhudilər mehriban şəraitdə yaşayıblar. Təəssüf ki, bəzən mənfi hallarla rastlaşırıq, lakin bu, ümumi mənzərəyə zərər vurmur.

İsrailin sosial bərabərlik naziri Gila Gamliel insanları birləşdirən dəyərlərdən bəhs edib. O vurğulayıb ki, İsrail hökuməti Suriyadakı müharibədən əziyyət çəkənlərə 1 milyon dollar məbləğində yardım edib. Madrid arxiyepiskopu Antonio Mariya Rouko Varela isə çıxışında din xadimlərinin dünyada sülhün bərqərar olunmasındakı rolundan danışaraq bu işin əslində hansı məsuliyyətləri daşıdığını qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə beynəlxalq konfrans iştirakçılarına, İspaniya xalqına və dövlətinə Azərbaycan Prezidenti İlham Əliyevin salamını və xoş arzularını çatdıraraq tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Mötəbər tədbirdə müxtəlif dini konfessiyaları təmsil edən dəyərli şəxsiyyətlərlə birlikdə olmağın, fikir mübadiləsi aparmağın çox xoş olduğunu deyən şeyxülislam Allahşükür Paşazadə son zamanlar dünyada baş verən faciəvi hadisələrin dini və milli zəmində ekstremizmin tüğyan etməsinə təkan verdiyindən təəssüfləndiyini vurğulayıb. O bildirib ki, törədilən silsilə terror aktları, insan qırğını, maddi və qeyri-maddi mədəni irsin məhvi, separatizm, ksenofobiya, islamofobiya təzahürləri sivilizasiyalar arasında qütbləşməni dərinləşdirən, dinlərarası və millətlərarası dialoqa vurulan ciddi zərbədir. Lakin yaşanan böhranlara baxmayaraq, hələ də dünyamızı məhvərindən çıxmağa qoymayan əbədi mənəvi dəyərlərin mövcud olduğunu qeyd edən şeyxülislam Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi istər Multikulturalizm, istər İslam Həmrəyliyi illərinin ümumi, bəşəri məramlara xidmət etdiyini xatırladıb. Bu, tarix boyu Şərq ilə Qərb arasında körpü olmuş Azərbaycan dövlətinin dünyada gedən proseslərə özəl, dəyərli töhfəsidir.

"Dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin nadir nümunəsinə malik Azərbaycan mədəniyyətlər, dinlərarası dialoqa dair qlobal beynəlxalq tədbirlərin ənənəvi ünvanı kimi tanınır. İslamla digər səmavi dinlər arasında dialoq və əməkdaşlığı, harmoniyanı ehtiva edən "İslam Həmrəyliyi İli" bu baxımdan gözəl fürsət kimi dəyərləndirilməlidir. Dünyanın aparıcı dini mərkəzlərinin liderlərinin ünsiyyətləri də bu mərama xidmət edir. İstər dünya katoliklərinin lideri Zati-müqəddəsləri Roma Papası Fransiskin, istər Moskva və Ümumrusiya Patriarxı Kirill həzrətlərinin Azərbaycanı ziyarətləri, burada kilsə və məsciddə keçirdikləri görüşlər dinlərarası dialoq prosesinə verdikləri önəmin bariz nümunəsidir", - deyə Qafqaz Müsəlmanları İdarəsinin sədri əlavə edib. Bütün problemlərin fövqündə duran sülhün qorunması işində dövlət rəhbərlərinin, ictimai və dini qurum liderlərinin birgə əməkdaşlığının vacib olduğunu vurğulayan şeyxülislam A.Paşazadə uzun illər davam edən, regionumuzda və dünyada sülhə təhdid olan bütün mövcud münaqişələrin ədalətli sülh yolu ilə həllini tapması üçün siyasi xadimlərin, dini liderlərin, dünya ictimaiyyətinin səylərini artırmasını zəruri hesab edib. QMİ sədri bildirib ki, separatizmdən uzun illər əziyyət çəkən xalq olaraq, biz dünyanın müxtəlif nöqtələrində zühur edən separatizm kabusunun bütün formalarını qətiyyətlə pisləyirik. Şeyxülislam qeyd edib ki, Azərbaycan dünyada bütün dövlətlərin, o cümlədən İspaniyanın ərazi bütövlüyünü tanıyır və hörmətlə yanaşır. Ölkəmizin 20 faiz ərazisinin Ermənistanın işğalı altında olması nəticəsində xalqımız soyqırımına məruz qalmış, milyondan artıq soydaşımız məcburi köçkün həyatı yaşamağa məhkum edilmiş, məscid, kilsə, sinaqoq və qəbiristanlıqlarımız məhv edilmişdir. Təbii ki, Allah evlərinə, müqəddəs dəyərlərə belə münasibət sərgiləyənlərə heç bir bəraət ola bilməz. Bununla belə, Azərbaycan xalqı uzun illər davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normaları əsasında ədalətli sülh yolu ilə həllinin istəyir. Bu əsnada, bu yaxınlarda erməni katalikosu II Qareginlə üçtərəfli görüşün təşkilatçısı olan Rus Pravoslav Kilsəsinin münaqişənin sülh yolu ilə həlli yönündə vasitəçilik missiyası yüksək dəyərləndirilib.

İsrailin baş sefard ravvini Şlome Moşe Amar terrorla mübarizə üçün dini konfessiyaların birliyinin əhəmiyyətini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında İslam həmrəyliyi ideyasını günün aktual ideyası adlandırmaqla yanaşı, bunun heç bir halda başqa mədəniyyətlərə qarşı yönəlmədiyini vurğulayıb. Burada əsas məqsəd müsəlman ölkələrində daxili sabitlik zəminində qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsidir ki, bu da təkcə İslam dünyasında deyil, bütün dünyada sülhün və rifahın təmin olunmasına böyük töhfə verə bilər.

Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov rəhbərlik etdiyi ali təhsil ocağının bütün fakültələrində multikulturalizm fənninin tədris edildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi var və burada dünyanın bütün dinləri ilə bağlı dərslər keçirilir. Bundan başqa, universitetdə İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzi fəaliyyət göstərir, İslam dini ilə yanaşı, digər dinlərlə bağlı maraqlı tədqiqatlar aparılır. Azərbaycanın İspaniyadakı səfiri Anar Məhərrəmov isə çıxışında Madriddə keçirilmiş tədbirin əhəmiyyətini bir daha vurğulayıb, insani dəyərlərin vacibliyini önə çəkib.

Konfransda Moskva Patriarxlığının xarici kilsə əlaqələri şöbəsi rəhbərinin müavini Arximandrit Filaret, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov, Milli Məclisin deputatı Rafael Hüseynov, İspaniyanın keçmiş daxili işlər naziri Xorxe Fernandez Diaz, İspaniya Müsəlmanları Cəmiyyətinin sədri Riay Tatari Baki çıxış ediblər.

Tədbir çərçivəsində mövzuya uyğun rəsm əsərinin təqdimatı olub. Konfrans iştirakçılarına Evsen Fondunun prezidenti Əli Evsenin müəllifi olduğu "İnsanlıq tarixi" kitabı, həmçinin ötən il Madriddə "Multikulturalizm İli" ilə bağlı keçirilmiş birgə beynəlxalq konfransın materiallarını əks etdirən nəşr paylanılıb. Tədbirin rəyasət heyətində təmsil olunan şəxslərə səmavi dinlərin birliyini simvolizə edən rəmzi xatirə hədiyyələri təqdim olunub. Konfransda dinlərarası ortaq Memorandum imzalanıb.

## Novruz Məmmədov: "Gənclər YAP-a üzv olmağı özlərinə qürur hesab edirlər"



"Ümumiyyətlə Yeni Azərbaycan Partiyası (YAP) haqqında danışarkən birinci növbədə qeyd etmək lazımdır ki, bu Cənubi Qafqazın ən böyük partiyasıdır. YAP XX və XXI əsr miqyasında götürsək dünyanın ən böyük siyasi və dövlət xadimlərindən biri Heydər Əliyevin təşəbbüsü, iştirakı və xeyir-duası ilə yaradılmış bir partiyadır". Bunu SİA-ya açıqlamasında Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə köməkçisi, şöbə müdiri Novruz Məmmədov deyib.

Prezidentin köməkçisinin sözlərinə görə, bu gün Azərbaycanın keçdiyi yol, qazandığı uğurlar, əldə etdiyi nailiyyətlər, həyata keçirdiyi möhtəşəm layihələr, nəqliyyat dəhlizləri, qaz və neft kəmərləri, dəmiryolları və s. hamısında YAP-ın öz töhfəsi vardır: "Burada əsas səbəb də odur ki, bu gün hakim partiya olan YAP xalqın partiyasıdır. Yəni bu partiya ölkənin xalqı ilə rəhbərliyi arasında bir vəhdət, körpü, dayaq nöqtəsi kimi birliyini təmin edir. Bu gün Azərbaycanın qazandığı bütün uğurlarda, keçdiyi şərəfli yolda YAP-ın böyük rolu vardır.

YAP həm üzvlərinin sayına, həm də fəaliyyətinə görə həmişə üzdə olan, ölkənin keçdiyi bütün proseslərdə fəal iştirak edən bir partiyadır. Bu gün YAP-ın üzvlərinin sayı getdikcə artır. Bunun böyük əhəmiyyəti vardır. Həmçinin bu çox vacib bir məsələdir. Bu o deməkdir ki, insanların bu partiyaya inamı var. YAP novator partiyadır, həm daxili, həm xarici siyasətdə ölkə maraqlarından çıxış edərək əməkdaşlıq əlaqələrini qurur. YAP Mərkəzçi Demokratlar İnternasionalı adlı beynəlxalq qurumla da sıx əməkdaşlıq edir. YAP öz gücünə, müdrikliyinə, fəaliyyətinə görə xüsusi yer tutur. Bu partiya eyni zamanda gənclərin partiyasıdır. YAP-da gənclərin sayı çoxdur. Gənclər bu partiyaya üzv olmağı özlərinə qürur hesab edirlər, partiyanın fəaliyyətinə, işinə güclü şəkildə öz töhfələrini verirlər. Düşünürəm ki, Azərbaycanın beynəlxalq aləmdə qazandığı yer, mövqe, oynadığı rolda YAP-ın böyük rolu olub. Əlbəttə bu da təbiidir. Çünki Azərbaycan Prezidenti İlham Əliyev YAP-ın sədridir. Düşünürəm ki, bundan sonra da hələ uzun onilliklər Azərbaycanın müstəqilliyi, sabitliyi, təhlükəsizliyi, davamlı inkişafı əbədidir. Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyev və ölkə xalqı bu partiya ilə birlikdə hələ uzun müddət uğurlu, nailiyyətlər dolu yolunu davam etdirəcək".

## Erməni mətbuatı: Regionda Ermənistan adlı dövlət sanki yoxdur



Ermənistan hakimiyyəti düşdüyü ağır iqtisadi və siyasi vəziyyətdən çıxış yolu axtarsa da tapa bilmir. Bu ölkənin mətbuatı isə hakimiyyəti məğlubiyyətini etiraf etməyə çağırır.

Ermənistan mətbuatını nəzərdən keçirdikdə görürük ki, son vaxtlar regionda baş verən proseslər bu ölkədə diqqətlə izlənilir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, bunun ardınca isə Tehranda Azərbaycan, İran və Rusiya prezidentlərinin görüşü və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin formalaşması istiqamətində aparılan işlərin müzakirəsi Ermənistanda növbəti vahimə dalğasının yaranmasına səbəb olub.

"Armtimes" saytı yazır ki, regionda həyata keçirilən beynəlxalq xarakterli və səmərəli nəqliyyat layihələrində Ermənistanın iştirak edə bilməməsi problemin bir tərəfidir. Problemin digər tərəfi isə daha təhlükəlidir. Sayt çox düzgün olaraq qeyd edir ki, Yerevanın müəllifi olduğu İran-Ermənistan dəmir yolu və İran-Ermənistan avtomobil yollarının çəkilişi artıq tamamilə öz əhəmiyyətini itirib.

İran-Ermənistan dəmir yolunun çəkilişi ideyası birdəfəlik dəfn olundu. Çünki İran Azərbaycan ərazisindən keçən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizini əsas götürdü və bu dəhlizin onurğa sütununu təşkil edən Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yoluna maliyyə ayırıb və işlərin 80 faizindən çoxu həyata keçirilib.

Avtomobil yoluna gəldikdə isə qeyd etməliyik ki, Ermənistanın bu layihəsi də Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi ilə əhəmiyyətini itirib. Bu yolun çəkilişi üçün Ermənistan dövlət büdcəsindən 1 milyard dollar ayrılıb. Uzunluğu 500 kilometr olan yol Ermənistanın cənubu ilə şimalını, yəni, İranla sərhəddə yerləşən Meğri şəhəri ilə Gürcüstanın Poti limanını birləşdirməli idi. Bu yolun inşasına 2011-ci ildə başlanılıb və ötən 6 ildə sadəcə olaraq 50 kilometri çəkilib. Ermənistan üçün yolun strateji mahiyyəti ondan ibarət idi ki, rəsmi Yerevan bu yolla "Şimal-Cənub" dəhlizinə qoşulmağı və Asiya ölkələrindən İrana daxil olan yüklərin bu yolla Gürcüstanın Poti limanına, oradan isə Avropaya daşınmasına nail olmağa çalışırdı. Bundan başqa, Ermənistan gələcəkdə Meğri-Poti yolunu Rusiyaya qədər uzatmağı və yüklərin əks istiqamətə - Rusiya-Gürcüstan-Ermənistan-İran istiqamətində daşınmasına nail olmağı və ikiqat tranzit gəlir götürməyi planlaşdırırdı. Lakin Rəşt-Astara dəmir yolu İranın Ermənistana avtomobil yolu çəkib onu Meğri-Poti magistralına birləşdirmək marağını itirdi. Bakı-Tbilisi-Qars dəmir yolu isə Gürcüstanın adıçəkilən magistrala diqqət ayırmamasına səbəb oldu. Aydın olur ki, Ermənistanın Meğri-Poti avtomobil yolunu yekunlaşdırması böyük sual altındadır. Yekunlaşdırsa belə bu yolla yalnız Ermənistanın cənub rayonlarının əhalisinin şimal rayonlarına gedişini təmin etmək olar.

Beləliklə, Ermənistanın layihələri nəinki kağız üzərində qaldı, eyni zamanda, avtomobil yoluna yatırılan sərmayəsi də puç oldu.

"Armtimes" saytı yazır ki, Azərbaycan-İran-Rusiya, Azərbaycan-Gürcüstan-Türkiyə formatlarında əməkdaşlıq əlaqələri mövcuddur və beynəlxalq səviyyəli iqtisadi layihələr həyata keçirilir. Ermənistan isə heç bir formatda yoxdur. Çünki Ermənistan regionda müstəqil siyasət apara bilmir. Regionda Ermənistan adlı dövlət sanki yoxdur.

## Daha bir neçə aviaşirkət Heydər Əliyev Beynəlxalq Aeroportunda "Terminal 2"dən uçuşlar həyata keçirəcək



Daha bir neçə aviaşirkət Heydər Əliyev Beynəlxalq Aeroportunda "Terminal 2"dən uçuşlar həyata keçirəcək. AZƏRTAC xəbər verir ki, bu barədə Heydər Əliyev Beynəlxalq Aeroportundan məlumat verilib. Bildirilib ki, Heydər Əliyev Beynəlxalq Aeroportu "Terminal 2"nin şimal girişindən uçuşların başlanması ilə əlaqədar olaraq, bu terminaldan noyabrın 16-dan etibarən "Azərbaycan Hava Yolları" QSC-nin Bakı-Bağdad reysləri, dekabrın 1-dən isə "Iraqi Airways" və "Al-Naser Airlines" aviaşirkətlərinin Bağdad-Bakı reysləri həyata keçiriləcək. Xatırladırıq ki, oktyabrın 29-dan etibarən "Buta Airways" loukosteri artıq bu terminaldan uçuşlar həyata keçirir. Gələn reyslər isə "Terminal 1" dən həyata keçirilir.

## Qroznıda Heydər Əliyev adına park açılacaq



Qroznıda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan park açılacaq. Parkın sahəsi təxminən 10 min kvadratmetr olacaq. AZƏRTAC xəbər verir ki, Çeçenistan paytaxtının meri Müslüm Xuçiyev bu barədə TASS agentliyinə müsahibəsində danışıb. Onun sözlərinə görə, "Müasir şəhər mühitinin formalaşması" adlı prioritet layihə çərçivəsində salınan Heydər Əliyev adına park 2017-ci ilin sonuna qədər açılacaq.

M.Xuçiyev deyib: ""Müasir şəhər mühitinin formalaşması" adlı prioritet layihənin həyata keçirilməsi çərçivəsində Qroznının mərkəzində Heydər Əliyev adına parkın tikintisi ilə bağlı işlər fəal şəkildə davam edir. Ərazisinin sahəsi təxminən 10 min kvadratmetr olan parkda yaşıllıqlar salınacaq, o cümlədən ağcaqayın, cökə, qayın ağacları və müxtəlif çoxillik güllər əkiləcək".

## BMT-nin korrupsiya əleyhinə beynəlxalq tədbirində Azərbaycandakı təkmil dövlət xidmətləri haqqında danışılıb



Noyabrın 6-da Avstriyanın Vyana şəhərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının 7-ci sessiyası başlayıb. Tədbirdə Konvensiyaya tərəf 183 dövləti, müşahidəçi statusuna malik ölkələri, beynəlxalq təşkilatları və qeyri-hökumət təşkilatlarını təmsil edən 1800-dən çox nümayəndə iştirak edir.

AZƏRTAC xəbər verir ki, sessiyada ölkəmizi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov təmsil edirlər.

Konfransın 7-ci sessiyasında BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının icrasına nəzarət mexanizmləri, texniki yardım, aktivlərin geri qaytarılması, preventiv tədbirlər, beynəlxalq əməkdaşlıq və digər sahələr üzrə müzakirələr aparılıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri İnam Kərimov tədbirin açılış mərasimində çıxış edib, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlardan və dövlət proqramlarından danışıb. O, Azərbaycanın genişmiqyaslı islahatların həyata keçirildiyi, regional əhəmiyyətli enerji və nəqliyyat layihələrinin reallaşdırıldığı, sabitlik, multikulturalizm və yüksək sosial rifah kimi anlayışları özündə birləşdirən məkan olduğunu diqqətə çatdırıb, ölkəmizin Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda 35-ci yerə layiq görüldüyünü bildirib.

Korrupsiyaya qarşı mübarizənin dövlət siyasətində prioritet istiqamət təşkil etdiyini deyən İ.Kərimov ölkəmizin təkmil antikorrupsiya qanunvericiliyinə malik olduğunu, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi kimi ixtisaslaşmış orqanların bu sahədə sistemli fəaliyyət göstərdiyini qeyd edib. İnam Kərimov Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan, Azərbaycan brendi olan "ASAN xidmət"in uğurlu fəaliyyəti, xarici ölkələrin bu modelə maraqlı olması və bəzi ölkələrin artıq "ASAN xidmət" modelini tətbiq etməsi ilə bağlı tədbir iştirakçılarını məlumatlandırıb. Qeyd edilib ki, təsis edildiyi vaxtdan indiyədək "ASAN xidmət" 11 mərkəzi və mobil xidmətləri ilə 18 milyondan çox vətəndaşa xidmət göstərib. Əhaliyə göstərdiyi yüksək səviyyəli xidmətə görə 2015-ci ildə "ASAN xidmət" BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub.

Konfransın gedişində "ASAN xidmət" brendinin tarixini və fəaliyyətini əks etdirən jurnallar iştirakçılara təqdim olunub. Tədbir çərçivəsində, həmçinin nümayəndə heyətinin digər üzvlərinin də çıxışları nəzərdə tutulur. Konfrans işinə noyabrın 10-da yekun vuracaq.

## Azərbaycan Türkiyə ilə "Cənub Qaz Dəhlizi"nin genişləndirilməsini müzakirə edib

Azərbaycan və Türkiyənin energetika nazirləri "Cənub Qaz Dəhlizi"nin genişləndirmə perspektivlərinə dair müzakirələr aparıblar. Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Pərviz Şahbazov Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrakın dəvəti ilə bu ölkəyə səfər edib. Səfər çərçivəsində dünən iki ölkə nazirlərinin iştirakı ilə görüş keçirilib. P.Şahbazov energetika naziri olaraq ilk rəsmi səfərini Türkiyəyə etdiyini diqqətə çatdırıb və dəvətə görə B.Albayraka təşəkkürünü bildirib. Bunu Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə verilən dəyərin göstəricisi kimi qiymətləndirib. Bildirilib ki, Azərbaycanla Türkiyə arasında daha bir qırılmaz bağ olan Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin açılışı, eləcə də iki ölkə arasındakı Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının 6-cı toplantısının ardınca keçirilən bu görüş enerji əməkdaşlığı üzrə yaranan yeni imkanları müzakirə etmək üçün faydalıdır. Tarixi İpək Yolunu yenidən bərpa edərək Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmiryolu xətti ölkələrimizin iqtisadi inkişafına, tranzit potensialının genişlənməsinə, türkdilli ölkələrin birliyinə xidmət göstərməklə yanaşı, yeni bir enerji dəhlizi də yaradacaq.

Görüşdə Azərbaycanın zəngin enerji resurslarını alternativ marşrutlarla dünya bazarlarına çatdırılmasında Türkiyə ilə birgə həyata keçirilən enerji siyasətinə nəzər yetirilib. Azərbaycan-Türkiyə əməkdaşlığının töhfələri olan "Əsrin müqaviləsi", "Şahdəniz" qaz yatağı layihəsi, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və TANAP layihələrinin ölkələrimizə qazandırdığı nailiyyətlərdən bəhs edilib.

Qeyd olunub ki, TANAP üzrə işlərin icra vəziyyəti yüksək səviyyədədir və bu da Azərbaycan qazının nəzərdə tutulduğu vaxtda Türkiyəyə çatdırılması üçün mühüm əhəmiyyət daşıyır. Görüşdə, həmçinin "Cənub Qaz Dəhlizi"nin genişləndirmə perspektivləri, Məşvərət Şurası çərçivəsində keçirilən görüşlərin işin gedişatına müsbət təsirləri ətrafında da müzakirələr aparılıb. Müzakirələr iki ölkə arasında elektrik enerjisi sahəsində əməkdaşlığı, eləcə də "Petkim", "Star" neft-kimya layihələri, yatırılan investisiyalar və belə layihələrin ölkələrimiz arasında ticarət dövriyyəsinə təsiri kimi məsələləri də əhatə edib. Görüşdə dünya enerji bazarında son vəziyyət ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# Milli Məclis komitələrinin birgə iclasında 2018-ci il dövlət büdcəsi haqqında layihə müzakirəyə çıxarılıb

***Noyabrın 7-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq, təbii ehtiyatlar, energetika və ekologiya, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, aqrar siyasət, ictimai birliklər və dini qurumlar komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" layihəsi müzakirə edilib.***



AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qanun layihəsi barədə məlumat verdi. Bildirdi ki, 2018-ci ilin dövlət büdcəsi miqyasına görə ən geniş müzakirə olunacaq məsələdir. Komitə sədri ölkəmizdə iqtisadiyyatın inkişafı istiqamətində atılan addımlardan danışdı, 2017-ci ildə Azərbaycanda iqtisadiyyat sahəsində baş vermiş mühüm hadisələri qeyd etdi.



Dövlətimizin başçısının "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin yaradılması barədə Fərmanından danışan Ziyad Səmədzadə bildirdi ki, bu qurumun yaradılması ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün cəsarətli addımdır. Azərbaycan Sənaye Korporasiyası təkrar emal sahəsinin inkişafında yeni mərhələ olacaq, ölkəmizdə sənayenin dinamik inkişafının təmin olunmasına kömək edəcək.

Büdcə layihəsi barədə məlumat verən maliyyə naziri Samir Şərifov bildirdi ki, 2017-ci ildə Azərbaycan makroiqtisadi sabitliyin təmin edilməsi və əhalinin milli valyutaya inamının bərpası prosesinin ilk mərhələsinin yekunu üzrə məqsədlərə çatıb. Bu, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən siyasi və iqtisadi tədbirlər sayəsində mümkün olub. Dövlət və icmal büdcə layihələri qlobal və milli iqtisadiyyatda gözləntilər nəzərə alınmaqla hazırlanıb.

Nazir bildirdi ki, 2018-ci ilin dövlət büdcəsinin gəlirləri 20,127 milyard manat proqnozlaşdırılır. Bu, ümumi daxili məhsulun 29 faizi həcmində olmaqla 2017-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 3,361 milyard manat və ya 20 faiz, ötən ilin faktiki icra göstəricisi ilə müqayisədə 2,621 milyard manat və ya 15 faiz çoxdur. Dövlət büdcəsinin gəlirləri üzrə proqnozun 7,907 milyard manatı və ya 39,3 faizi Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 9,216 milyard manatı və ya 45,8 faizi Dövlət Neft Fondundan transfertin, 2,43 milyard manatı və ya 12,1 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 574 milyon manatı və ya 2,8 faizi isə digər gəlirlərin payına düşür. Azərbaycanın 2018-ci il dövlət büdcəsinin layihəsində dövlət borcuna xidmətlə bağlı 2,263 milyard manat həcmində vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da 2017-ci ilin analoji proqnozu ilə müqayisədə 37,8 faiz çoxdur. Bu artımın da 72 faizi (442 milyon manat) Azərbaycan Beynəlxalq Bankının (ABB) sağlamlaşdırılması prosesi çərçivəsində dövlətin üzərinə keçmiş xarici kreditorlar qarşısındakı öhdəliklərin icrasına yönəldilmiş xərclərdir.

Nazir qeyd etdi ki, gələn il xarici maliyyə institutlarından cəlb ediləcək 1 milyard 362 milyon manat kredit hesabına bir sıra infrastruktur və sosial dayanıqlı layihələrin maliyyələşdirilməsi davam etdiriləcək. Bundan başqa, Azərbaycan Respublikası Neft Fondunun (ARDNF) vəsaiti hesabına bir sıra investisiya layihələrinin maliyyələşdirilməsi üçün 2 milyard 771 milyon manat vəsait nəzərdə tutulub. Samir Şərifov bildirdi ki, publik hüquqi şəxslərin fəaliyyətinin tənzimlənməsi üçün dövlət dəstəyi olaraq 111 milyon manat maliyyə yardımı ayrılacaq. Dövlət tərəfindən maliyyə yardımı, ianə və dotasiyalar şəklində bələdiyyələrə, qeyri-dövlət təşkilatlarına, dini qurum və icmalara, siyasi partiyalara və kütləvi informasiya vasitələrinin inkişafına, Gənclər Fonduna, Bilik Fonduna, Elmin İnkişafı Fonduna müvafiq məbləğlərdə vəsait ayrılması nəzərdə tutulub. Sonra çıxış edən iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova diqqətə çatdırdı ki, gələn il ümumi daxili məhsulun 1,5 faiz, növbəti illərdə isə 3,5 faiz artacağı proqnozlaşdırılır. Nazir müavini bildirdi ki, 2018-ci ildə tədiyyə balansı üzrə müsbət saldonun 1,4 milyard dollar olacağını gözlənilir. Gələn il qeyri-neft sektorunda 2,9 faiz, növbəti illərdə isə orta hesabla 3 faizdən yuxarı artım proqnozlaşdırılır. Gələn il hasilatın azalması nəticəsində neft sektorunun 1 faiz azalacağı, "Şahdəniz-2" layihəsinin işə düşməsi ilə isə qaz hasilatının artması gözlənilir. Növbəti illərdə orta hesabla neft-qaz sektorunun 5 faizə yaxın artacağı proqnozlaşdırılır.

Sevinc Həsənova qeyd etdi ki, "Azəri-Çıraq-Günəşli" yatağı üzrə yeni müqavilənin imzalanması ölkə iqtisadiyyatının inkişafına təkan verəcək. Sonra iclasda büdcə layihəsi ilə bağlı Hesablama Palatasının rəyi dinlənildi. Palatanın sədri Vüqar Gülməmmədov bildirdi ki, 2018-ci il dövlət büdcəsinin tərtibi zamanı gəlir və xərclərin tam şəffaflığı qorunub. Növbəti ilin büdcə layihəsində ötən illərdə olduğu kimi, dövlət başçısı tərəfindən prioritet hesab edilmiş müdafiə və sosial sahələrə diqqət davam etdirilib. 2018-ci ilin dövlət büdcəsinin gəlirləri 20,1 milyard, xərcləri isə 20,9 milyard manat məbləğində müəyyən edilib, həmçinin mərkəzləşdirilmiş və yerli gəlirlərə aid edilən daxilolmalar göstərilib.

Vüqar Gülməmmədov diqqətə çatdırdı ki, 2018-ci ilin dövlət büdcəsi layihəsi "Büdcə sistemi haqqında" Qanunun tələblərinə uyğun olaraq hazırlanıb, tələb olunan bütün istiqamətlərdəki xərclər öz əksini tapıb.

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov bildirdi ki, son illər maliyyə bazarlarında neftin qiymətinin kəskin azalması müşahidə edilir və nəticə etibarilə Azərbaycanın neft və qaz gəlirlərinin azalması artıq faktdır. Amma Dövlət Neft Fondunun yaradılması ilə bağlı uzaqgörən siyasət artıq özünü qabarıq büruzə verir. Bildiyiniz kimi, bu gəlirlərin azalması şəraitində ARDNF-in dövlət büdcəsinə ayırmaları tam və vaxtında icra edilir, bu da ölkədə makroiqtisadi və fiskal sabitliyin, dayanıqlılığın təmin edilməsinə töhfəsini verir.

2018-ci ildə bir barrel neftin qiymətinin orta hesabla 45 dollardan götürüldüyünü deyən Fond rəhbəri qeyd etdi ki, bu hesablamalarla gələn il ARDNF-in gəlirləri 10,7 milyard manat olacaq. Bunun əsas gəlir mənbəyi dövlətin payına düşən mənfəət karbohidrogenlərinin satışından proqnozlaşdırılır. ARDNF-in gələn il xərclərinin yuxarı həddinin 12 milyard manat olacağı gözlənilir. Sonra büdcə layihəsi ilə bağlı müzakirələr aparıldı, rəy və təkliflər səsləndirildi.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlardan Vahid Əhmədov, Aydın Hüseynov, Zahid Oruc, Əli Məsimli çıxış edərək 2018-ci il dövlət büdcəsi layihəsi barədə fikirlərini bildirdilər.

Sonra çıxış edən maliyyə naziri Samir Şərifov suallara və deyilən fikirlərə cavab verdi, iclasda səslənən təkliflərə bir daha baxılacağını dedi. Müzakirələrdən sonra büdcə layihəsi parlamentin plenar iclasında baxılmağa tövsiyə olundu.

# "Müstəqil Azərbaycanın ictimai-siyasi həyatında qadınların rolu"

## *Bu mövzuda YAP Suraxanı rayon təşkilatında tədbir keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının və YAP Suraxanı rayon təşkilatının birgə təşəbbüsü ilə partiyanın yaradılmasının 25 illik yubileyi münasibətilə "Müstəqil Azərbaycanın ictimai-siyasi həyatında qadınların rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə YAP-ın Suraxanı, Sabunçu, Xəzər, Nizami və Şuşa rayon təşkilatlarının qadınlar şuralarının üzvləri iştirak ediblər. YAP Suraxanı rayon təşkilatının qərargahında keçirilən tədbir Dövlət Himnin səsləndirilməsi ilə başlayıb. Sonra Azərbaycan qadınlarına həsr olunmuş video-çarx nümayiş olunub.***





Tədbiri giriş özü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib ki, YAP ölkəmizin siyasi həyatında uğurla fəaliyyət göstərir və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlər qazanır: "Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox mühüm uğurlar qazanıb. Partiyamızın sıralarında qadınların da təmsilçiliyi çox yüksəkdir".

YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva çıxışında bildirib ki, xalqımızın partiyamızın yaradılmasının 25 illik yubileyini böyük təntənə ilə qeyd etməsinin çox böyük mənası var: "1992-ci il tariximiz üçün, xalqımız üçün sınaq dövrü idi. Çünki Azərbaycan parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ölkəmizə uzanan əllər bir fürsət gözləyirdi. İnsanlar həmin dövrdəki rəhbərliyin qurtuluş yolu tapacağına inanmırdı. Ona görə də, ölkədə təbədüllatlar və hərc-mərclik baş alıb gedirdi. Belə bir dövrdə insanların mənəvi gücünü səfərbər etmək üçün Ulu Öndər Heydər Əliyev YAP-ı yaratdı və əmin idi ki, bu partiyanın sıralarına, məhz ölkənin ən kamil, vətənpərvər, ziyalı insanları gələcək. Bu insanların köməyi ilə hərcmərclik aradan qaldırılacaq. YAP-ın yaranması buna çox ümidverici cavab oldu. Adından da göründüyü kimi, Ulu Öndər yeniləşən Azərbaycanda yeni partiya yaratdı və insanların gücünü bu partiyada səfərbər etdi".

N.Əliyeva çıxışında onu da qeyd edib ki, Ulu Öndər Heydər Əliyev qadınların cəmiyyətdəki nüfuzuna, onların mənəvi potensialına, dərin müşahidəsi və həyati biliyinə bələd idi: "Odur ki, bu zərif, həm də çox güclü zümrənin dövlətçilik və müstəqiliyimizin çətin yollarında böyük dayaq olacağına inanırdı. Bu inam ilə 1995-ci ildə YAP Qadınlar Şurası yaradıldı. Ilk günlərdən Qarabağ savaşında düşmənə qarşı qətiyyətli etirazları ilə əhali arasında təbliğat aparan qadınlarımız YAP-ın sıralarına dəstə-dəstə gəlirdilər. Onları bu partiyanın sıralarına gətirən Heydər Əliyev zəkasına, Onun müdrük siyasətinə olan böyük inam, ümid və etibar idi. Bu sarsılmaz inamla onlar YAP-ın sıralarında böyük bir orduya çevrildilər".

N.Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin müavini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin hər bir qadın üçün örnək olduğunu bildirib: "Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət Azərbaycan qadınları tərəfindən birmənalı şəkildə dəstəklənir".

Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədr müavini, YAP Qadınlar Şurasının sədr müavini Sevinc Fətəliyeva çıxışında ölkəmizin ən aparıcı siyasi qüvvəsi olan YAP-ın tarixindən, partiyanın müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmlənməsində, ölkəmizin inkişafındakı mühüm rolundan ətraflı danışıb. Bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qətiyyəti və iradəsi ilə yaradılmış Yeni Azərbaycan Partiyası bu gün həm ölkə daxilində, həm də regionda lider partiyaya çevrilib.

Partiyanın sıralarında qadınların təmsilçiliyinin yüksək olduğunu deyən S.Fətəliyevanın sözlərinə görə, ölkəmizdə gender bərabərliyi tam təmin olunub. O, ölkə parlamenti tərəfindən qadın hüquqları ilə bağlı müvafiq qanunların qəbul edildiyini, eləcə də, ölkəmizin gender məsələləri ilə əlaqədar xeyli sayda beynəlxalq konvensiyaya qoşulduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, millət vəkili Sədaqət Vəliyeva bildirib ki, Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib. Onun sözlərinə görə, bu gün YAP milli siyasi iradəni təmsil edən və xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib.

Millət vəkili Dilarə Cəbrayılova isə çıxışında qeyd edib ki, Azərbaycan bu gün xalq-iqtidar birliyi nəticəsində Ulu Öndərin müəyyən etdiyi strateji xətlə inamla inkişaf edir: "Bu xətti əzmlə irəli aparan isə Ulu Öndərin layiqli siyasi varisi, praqmatik dövlət xadimi, dünya miqyasında böyük hörmət və nüfuza malik Prezident İlham Əliyevdir".

Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov çıxışında partiyanın yaranma tarixindən danışıb və xalq qarşısında xidmətlərindən ətraflı bəhs edib. Partiyada qadınların təmsilçiliyinə gəlincə, İ.Abbasov qadınların ölkənin ictimai-siyasi həyatında və quruculuq işlərində fəal iştirak etdiklərini bildirib.

Tədbirdə, həmçinin, YAP Şuşa rayon təşkilatı qadınlar şurasının sədri Vüsalə Fətəliyeva, YAP Xəzər rayon təşkilatı qadınlar şurasının sədri Pərvin Hacıyeva və YAP Suraxanı rayon təşkilatı qadınlar şurasının sədri Zəkiyyə Musayeva çıxış edərək, partiyamızın ötən 25 ildə keçdiyi şərəfli yoldan və qadınların ölkənin ictimai-siyasi həyatında iştirakından ətraflı bəhs ediblər.

Sonda YAP sıralarına yeni qəbul olunan gənclərə üzvlük vəsiqələri təqdim olunub.

***Zümrüd BAYRAMOVA***

# Qaradağda YAP-ın yaranmasının 25 illik yubileyi ilə bağlı növbəti tədbir keçirilib

***Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının qadınlar şurası YAP-ın yaranmasının 25 illik yubileyi ilə bağlı tədbir keçirib. Tədbirdə çıxış edən rayon təşkilatı qadınlar şurasının sədri Hicran Xəlilova partiyanın yaranması tarixinə qısa nəzər salıb, ötən 25 ildə əldə olunan böyük nailiyyətlərdən danışıb. H.Xəlilova Ulu Öndərin quruculuq siyasətinin həyata keçirilməsində YAP-ın mühüm rol oynadığını və bu siyasi kursun layiqli davamçısı YAP Sədri, ölkə Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində Azərbaycanın yeni-yeni uğurlara imza atdığını vurğulayıb.***





Tədbirdə YAP Qaradağ rayon təşkilatının sədri, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov çıxış edərək YAP-ın Azərbaycan dövlətçiliyinin inkişafında xidmətlərindən danışaraq, bildirib ki, partiyamızın bu istiqamətdə gördüyü böyük işlər hər bir vətəndaşımız tərəfindən yüksək qiymətləndirilir. YAP-ın ölkəmizin siyasi, iqtisadi, ictimai həyatında mühüm rol oynadığını və sıralarında 700 mindən artıq insanı birləşdirdiyini deyən A.Hüseynov bildirib ki, 25 illik bir dövr Azərbaycanın müstəqillik və inkişaf tarixinə çevrilib: "Bu illər ərzində Azərbaycanın beynəlxalq müstəvidə nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib, hərbi və siyasi baxımdan ölkəmiz qüdrətli dövlətə çevrilib. Bu gün partiyamızın sıralarında qadınların fəal təmsilçiliyinin əhəmiyyətini qeyd edərək, vurğulamaq istərdim ki, Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının Sədr müavini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti, nəinki partiyamızda təmsil olunan yüz minlərlə qadınlarımız, o cümlədən, bütövlükdə Azərbaycan qadını üçün nümunə və həyat məktəbi sayılır".

Tədbirdə YAP Qaradağ rayon təşkilatının sədr müavini Hicrət Qaradağlı, rayon təşkilatı qadınlar şurasının sədr müavini Nazakət Məmmədova və digərləri çıxış edərək bildiriblər ki, Ulu Öndər Heydər Əliyev hər zaman qadınlarımıza xüsusi diqqət və qayğı ilə yanaşıb. Qeyd olunub ki, Ulu Öndərin müəyyənləşdirdiyi siyasəti bu gün Prezident İlham Əliyev uğurla davam etdirir.

Sonda rayon təşkilatının qarşıdakı dövrlər üçün tədbirlər planı da müzakirə olunaraq, qəbul edilib.

***R.HÜSEYNOVA***



## Xarici törəmələrin nökərləri

RƏFİQƏ

***Bu gün 24 ilə yaxın vaxt ərzində ciddi bir uğura imza ata bilməyən dağıdıcı müxalifətçilərin nə səbəbdən fəaliyyətlərini dondurmamaları sualı bəzi müxalifət liderlərini düşündürür. Əslində, yerində verilən saldır. Çünki sualın bu yöndə qoyuluşu özündə bir sıra amilləri ehtiva edir. Onlar ötən əsrin sonunda cəmicümlətani bir dəfə hakimiyyət sükanının arxasına keçdilər və bircə ilə ölkə iqtisadiyyatını, daxili və xarici siyasətini çökdürdülər. Bundan sonra "davam, yoxsa tamam?" sualının cavabı "tamam!" olmalı idi. Amma...***

Əslində, bunun səbəbi də məlumdur. Artıq bu illər ərzində müxaliftətçilik lüzumsuz vərdişə çevrildi və bu pis vərdiş də yavaş-yavaş iş və ya fəaliyyət növünə, yəni peşə xəstəliyinə çevrilib. İndi başbilən müxalifətçilər onu istəsələr də dayandıra bilməzlər. Çünki müxalifətçilər və onların "liderləri" hər hansı bir iş görmək qabiliyyətini itiriblər. Yəni əllərindən yalnız boşboğazlığa söykənən müxalifətçilik gəlir. Onları bu mərəzə yoluxduran qüvvələr bu gün də var. Daxili və xarici törəmələrin nökərləri olaraq "tarix" yazıblar. İsa Qəmbər, Əli Kərimli, Pənah Hüseyn, İqbal Ağazadə, Arif Hacılı, Fuad Qəhrəmanlı, Emin Hüseynli, Bəxtiyar Hacıyev, Leyla Yunus, Xədicə İsmayıl...və kimlər-kimlər....

Xarici qüvvələrin qərəzləri isə daxildəkindən qat-qat artıqdır. Çünki biri yalnız cəfəng ideya ixrac etdiyi halda, o biri nağd qrant ixrac edir. Bu qrantlar isə yeyildikcə yeyilir. Özü də iqtisadi cinayətlər hesabına! Tutulanda da deyirlər ki, bəs bizi siyasi motivlərlə həbs ediblər. Xarici qrantpaylayanlar isə çəkirlər donlarını başlarına və o ki var döşəyirlər Azərbaycanın milli dövlətçilik maraqlarına...

Yəqin indi aydın oldu ki, bu cür mərəzə və xəstəliyə yoluxan ənənəvi müxalifətçilər nə səbəbə bu gün də öz kreslolarından bərk-bərk yapışıb qalıblar. Bəs pulları kim qazansın? Əlbəttə ki, yalnız özləri qazanmaq istəyirlər. Hətta tutulsalar belə, onların pulparalarının ardı-arası kəsilməməlidir. Ona görə də vaxtilə "Demkonqres"dən "SİDSUH"a, "SİDSUH"dan "DSİ"yə, "DSİ"dən "MKM"ə "MKM"dən "İctimai Palata"ya, "İctimai Palata"dan da "Milli Şura"ya atlana-atlana gedirlər. Amma ortada əsaslı faktor yoxdur. Sadəcə, qrant və maliyyələrin gəlirindən başqa...

Artıq sonrasının nə olacağı bəllidir. İ.Qəmbər bu gün Müsavatı dağıdıb və hadisələri kənardan izləyir, Ə.Kərimli də eyni vəziyyətdə "Yurd"u ilə əlləşir və nə yaxşı olardı ki, onlar elə əlləşmələrində qalsınlar. Çünki üzü bu yanlıq onların heç nəyi qalmayıb. Hətta onlar üzü o yanlıqdırlar desək, lap yerinə düşərdi...

## Binəqədi rayonunda ağacəkmə aksiyası keçirilib

Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə YAP Binəqədi rayon təşkilatının Biləcəri qəsəbəsi, X.Məlikaslanov küçəsi- 10 ünvanlı (284 saylı tam orta məktəb) ərazi ilk partiya təşkilatında ağacəkmə aksiyası keçirilib. Aksiyada Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının



aparat rəhbəri Sevinc Abdullayeva, təşkilatın əməkdaşları, ərazi ilk partiya təşkilatının sədri, 284 saylı tam orta məktəbin direktoru Nizami Novruzov və məktəbin bir qrup müəllim və şagird heyəti iştirak ediblər. Ağacəkmə aksiyasında məktəbin həyətyanı sahəsində ağaclar əkilib. Daha sonra məktəbin istedadlı şagirdlərinin ifasında bədii proqram nümayiş edirilib.

**ZÜMRÜD**

# Zamanın tələbi və xalqın istəyi ilə yaranan partiya

*Yeni Azərbaycan Partiyası 25 illik şərəfli və qürurverici fəaliyyəti ilə Cənubi Qafqazın lider partiyası olduğunu göstərdi*

***Azərbaycanın ən böyük aparıcı, güclü siyasi qüvvəsi olan, xeyirli və gərəkli fəaliyyəti ilə xalqın dəstəyini qazanmış Yeni Azərbaycan Partiyasının yaranmasından 25 il ötür. Cənubi Qafqazın ən böyük siyasi partiyası olan YAP, ötən müddət ərzində, Azərbaycanın inkişafına, dünyada yerinin və rolunun artmasına, eləcə də, möhkəmlənməsinə özünün mühüm töhfələrini vermişdir. YAP-ın yaranma tarixinə nəzər salsaq, görərik ki, həmin dövrdə Azərbaycan ağır duruma düşmüşdü, buna görə də, ölkə siyasi və iqtisadi böhran keçirirdi.***

Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq, ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra, müstəqillik əldə etmiş respublikalardan biri kimi, Azərbaycanda da müxtəlif siyasi partiyalar və digər qurumlar təşəkkül tapmağa başlamışdı. Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi-siyasi və mənəvi böhrandan, nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq, təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi-iqtisadi və sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları və tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış Lideri Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş və o tarixi keşməkeşli vaxtlarda "Səs" qəzetində dərc olunan həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuatda Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda partiyanın təsis konfransı 550 nəfər nümayəndənin iştirakı ilə keçirildi və Heydər Əliyev YAP-ın Sədri seçildi. Həmin dövrü xatırlayan Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdi ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki,



müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir: "O vaxtkı iqtidar ölkəni uçuruma aparırdı. Səriştəsiz, bacarıqsız, biliksiz insanlar, demək olar ki, Azərbaycanın dövlət müstəqilliyinə böyük zərbə vurmuşdular. Ona görə də, Heydər Əliyevin ətrafında birləşən insanlar, ilk növbədə, çox böyük cəsarət göstərmişdilər. Çünki o vaxtkı iqtidar imkan vermədi ki, partiyanın təsis qurultayı Bakıda keçirilsin. Digər tərəfdən, onlarda olan Vətən sevgisi onların bu hərəkətlərini şərtləndirdi".

Yeni Azərbaycan Partiyasının yaradılmasından az sonra Ulu Öndər Heydər Əliyev xalqın çağrışı ilə Azərbaycanda hakimiyyətə gəldi. Bu, elə bir vaxta təsadüf edirdi ki, ölkənin müstəqilliyi təhlükə altında idi, iqtisadi böhran hökm sürüdü, əhalinin sabaha olan inamı sarsılmışdı. Bunları həyata keçirmək çətin olsa da, Dahi Öndər Heydər Əliyev hakimiyyətə gəlişindən sonra uzaqgörən, müdrik siyasəti ilə çətinlikləri və böhranlı vəziyyəti aradan qaldıra bildi. Sonrakı dövrlərdə dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi və Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı. Təbii ki, uğurların əldə olunması üçün Azərbaycan xalqı birmənalı mövqe ortaya qoymaqla, Ulu Öndərimizin ətrafında sıx birləşmişdi. Mən hələ gəncliyimdən Ulu Öndərimiz Heydər Əliyevin vurğunu olmuşam. Bir ovuc qaragüruh dəstə Ulu Öndərə qarşı "qara piar" kampaniyası aparan zaman minlərlə Azərbaycanın vətənpərvər insanları kimi Onun müdafiəsinə qalxmışam. 1992-ci ildə Ali Sovetin qarşısında yaş senzinə qarşı keçirilən mitinqlərin fəal təşkilatçılarından olmuşam. 1992-ci ildə Heydər Əliyevin hüquqlarının qorunması məqsədilə Zahid Qaralovun rəhbərliyi ilə 27 nəfərdən ibarət Müdafiə Komitəsinə üzv seçilmişəm. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması ilə əlaqədar ziyalıların Ulu Öndər Heydər Əliyevə müraciəti və Heydər Əliyevin ziyalılara cavabı "Səs" qəzetində dərc olunduqdan sonra həmin qəzetin 2000-dən artıq nüsxəsini Zəngilan rayonunda çox çətinliklə paylamışam. 1992-ci ilin noyabr ayında YAP-ın Naxçıvanda keçirilən ilk təsis konfransının iştirakçısı olmuş və Zəngilan rayon təşkilatının adından mən çıxış etmişəm. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsi üçün 1050 imzanın 278-ni mən təşkil etmişəm. Bu imzalardan 147 nəfəri - mənim anam, bacım bir sözlə, qohum-əqrəbam olub. Yeni Azərbaycan Partiyasının Zəngilan, Laçın, Ağcabədi, Goranboy, Xəzər və Nərimanov rayon təşkilatının mən yaratmışam. 1993-cü ildə partiyanın hesabına 3 milyon yarım pul köçürmüşəm. 10 min manat nağd pul verib 1 saylı qəbzi mən almışam (YAP-ın möhürünü və ştampını mən almışam). Bundan əlavə, "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin hesabına 1 milyon 400 min manat pul köçürmüşəm. 1994-cü il noyabr ayının 9-da 1-ci qurultaya hazırlıq üçün yaradılmış Təşkilat Komitəsinin üzvü seçilmişəm. Bir sözlə, Ulu Öndərin qurucusu olduğu partiyanın təşkilatlanması və formalaşmasında fəal iştirakçılardan olmuşam.

### YAP-ın yeni mərhələdə növbəti uğurları Prezident İlham Əliyevin adı ilə bağlıdır

Fəaliyyətini dövlət və milli maraqlar əsasında quran YAP hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirmək və hər bir Azərbaycan vətəndaşının təminatlı rifahı uğrunda mübarizə aparır. Yeni Azərbaycan Partiyasının 2001-ci ilin noyabr ayının 21-də keçirilən II Qurultayı təşkilatın həyatında taleyüklü qərarlar qəbul etmişdir. Partiyanın Nizamnaməsinə dəyişikliklər edilmiş və yeni təsis olunan Sədrin birinci müavini vəzifəsinə yekdilliklə İlham Əliyev seçilmişdir. Qurultay partiyanın rəhbər orqanlarını - 108 nəfərdən ibarət Siyasi Şura üzvlərini və onların arasından 26 nəfərdən ibarət İdarə Heyətini seçmişdir. 2003-cü ilin oktyabr ayının 15-də keçirilən Prezident seçkilərində YAP Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi partiyanın ölkənin ictimai-siyasi həyatında hansı nüfuza sahib olmasını əyani şəkildə təsdiqlədi. 2004-cü ilin dekabr ayının 17-də bələdiyyə, 2005-ci ilin noyabr ayının 6-da Milli Məclisə seçkilərdə YAP yenidən qələbə çalaraq həm yerli özünüidarəetmə orqanlarında, həm də qanunvericilik orqanında daha çox təmsil olunan partiya kimi növbəti uğura imza atdı. Yeni Azərbaycan Partiyasının 2005-ci ilin mart ayının 26-da keçirilən III Qurultayında Azərbaycan Respublikasının Prezidenti, YAP Sədrinin birinci müavini İlham Əliyev yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçilmişdir. Qurultayda partiyanın rəhbər orqanlarına keçirilən seçkilərdə 102 nəfər Siyasi Şura üzvü və onların

# Zamanın tələbi və xalqın istəyi ilə yaranan partiya

*Yeni Azərbaycan Partiyası 25 illik şərəfli və qürurverici fəaliyyəti ilə Cənubi Qafqazın lider partiyası olduğunu göstərdi*



içərisindən isə 25 nəfər İdarə Heyətinə seçilmişdir.

Ötən 25 ilə yaxın bir müddətdə böyük inkişaf yolu keçən YAP bu gün Prezident İlham Əliyevin Sədrliyi ilə inkişafının yeni mərhələsini yaşayır. Bu gün Azərbaycanın bütün regionlarında dövlət siyasətinin həyata keçirilməsində ən fəal qüvvə YAP-ın təmsilçiləridir. Ulu Öndər Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də xalqına Cənab İlham Əliyev kimi sadiq davamçı bəxş etdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkədə həyata keçirdiyi daxili və xarici siyasət, məhz Ulu Öndər Heydər Əliyev siyasətinin davamıdır. Hazırda dünyanın inkişaf etmiş, demokratik prinsiplərinə sadiq, hüquqi dövlətlər sırasında mühüm yeri olan Azərbaycanın müstəqilliyinin qorunmasında və inkişaf etdirilməsində YAP-ın xidmətləri danılmazdır. Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyub. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə YAP bundan sonra da ölkənin qüdrətinin artması, iqtisadiyyatının yüksəlməsi, insanların rifah halının yaxşılaşması kimi şərəfli bir vəzifəni öz çiyinləri üzərində daşımaq iqtidarındadır. Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bir çox sahələrdə uğurlar qazanıb. Son illərdə Azərbaycan Respublikasının uğurlu inkişaf mənzərəsi hər kəsin gözü önündədir. Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır, regionun isə lideridir. Bu regionda Azərbaycanın razılığı olmadan hər hansı bir layihəni həyata keçirmək mümkün deyil. Bu yaxınlarda Ulu Öndərimizin şah əsərlərindən olan "Əsrin Müqaviləsi"nin 2050-ci ilə qədər uzadılması barədə Sazişin imzalanmasından sonra oktyabrın 30-da dünyanın 100 ən möhtəşəm layihələrindən olan Bakı-Tbilisi-Qars Dəmil Yolunun açılış mərasimi keçirildi. Noyabrın 1-də isə Azərbaycan, Rusiya və İran prezidentlərinin iştirakı ilə dövlətlərarası əlaqələrin inkişafına mühüm töfhə verəcək Zirvə görüşü keçirildi. Azərbaycan indiyədək "Əsrin Müqaviləsi", Bakı-Tbilisi-Ceyhan Neft Kəməri, Bakı-Tbilisi-Qars Dəmir Yolu, Cənub Qaz Dəhlizi layihələri ilə dünyanın diqqətini çəkib. "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin işə salınması üçün artıq addımlar atılmaqdadır. Noyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevin Tehrana səfəri zamanı İran İslam Respublikasının prezidenti Həsən Ruhani və Rusiya prezidenti Valadimizr Putinlə keçirilən Zirvə görüşdə "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin qısa zamana istifadəyə verilməsi barədə müzakirələr aparılmışdır. Bu isə, növbəti ildə layihənin istismara veriləcəyinə əminlik yaradır.Bir çox beynəlxalq təşkilatların böyük tədbirləri Azərbaycanda keçirilir, çünki ölkəmizə etibar edirlər. Bütün bu kimi layihələrin, görüşlərin keçirilməsi Azərbaycanın və onun Prezidenti İlham Əliyevin gücünün və qüdrətinin nəticəsidir. Bu, həm də, bir daha onu deməyə əsas verir ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir qlobal layihə reallaşa bilməz. Azərbaycan regonun sabitliyinə və inkişafına töhfələr verməklə yanaşı, daxili inkişafına da xüsusi diqqət göstərir. Bunun nəticəsidir ki, bu gün kənd və qəsəbələrimiz, eləcə də, şəhərlərimiz uğurla inkişaf edir. Quruculuq-abadlıq işləri ölkəmizin hər bir guşəsində aparılır. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində, ardıcıl olaraq tədbirlər görülür, yeni iş yerləri açılır, yollar, körpülər, məktəblər və tibb ocaqları tiklib istifadəyə verilir. Bu gün Azərbaycan güclü dövlətdir və gələcəyi də çox uğurlu görünür.

## İdeyalara sadiq partiya

Müasir dövrümüzdə Yeni Azərbaycan Partiyası Heydər Əliyev ideyalarına əsaslanır və bu ideyalar əsasında Azərbaycan cəmiyyətinin inkişafının əsas istiqamətlərini müəyyənləşdirir. 25 illik tarixi gedişdə Yeni Azərbaycan Partiyasını daim uğurlar və nailiyyətlər müşayiət edib. Əldə olunan bu uğurlar, ümumilikdə ölkənin inkişafında və tərəqqisində özünü təsdiqləyən və əks etdirən uğurlardır. Bu inkişafa və tərəqqiyə Yeni Azərbaycan Partiyasının 700 mindən artıq üzvünün hər biri öz töhfəsini verməkdədir. MDB məkanında ən böyük siyasi təşkilat olan YAP ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edən gəncləri ətrafında birləşdirən mükəmməl qurulmuş siyasi sistemə çevrilib. Gənclərin seçdiyi bu partiyanın ölkəmizin müstəqillik tarixində oynadığı rolu, ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində gördüyü işlər və əldə edilən böyük nəticələr hər kəsi qürurlandırır. YAP gəncliyin inkişafına xüsusi diqqət yetirir və onların bilik və bacarıqlarını ifadə etmək üçün hər cür şərait yaradır. Məhz bu səbəbdəndir ki, Azərbaycanın gəncliyi öz siyasi taleyini YAP-la bağlayaraq, onun sıralarına qoşulurlar. İnam və etibar Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin bu gün ölkə Prezidenti, YAP Sədri İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasət nəticəsində mümkün olub. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP söz yox ki, bundan sonra da fəaliyyətini xalqa, dövlətə xidmət və milli maraqların keşiyində durmaq üzərində quracaq. Tam əminliklə demək olar ki, bunlara Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə nail olunacaq.

**_Misirxan Vəliyev,_**
**_Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, partiyanın İcra Katibliyinin Baş məsləhətçisi_**

## YAP Sabunçu rayon təşkilatı partiyanın 25 illik yubileyi və Bayraq Gününə həsr edilən tədbir keçirib

**_Dünən YAP Sabunçu rayon təşkilatının təşkilatçılığı ilə partiyanın 25 illik yubileyi və Bayraq Gününə həsr edilən tədbir keçirilib. Rayon təşkilatının qərargahında keçirilən tədbirdə Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş filmə baxış olub._**






Tədbiri giriş sözü ilə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva açaraq bildirib ki, xalqımız həm Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyini, həm də 9 Noyabr Bayraq Gününü qeyd edir. Bu tarixi hadisələr hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi müstəqil Azərbaycanın tarixində əhəmiyyətli hadisədir və Azərbaycanın bugünkü inkişafı, tərəqqisi hər bir Azərbaycan vətəndaşında, Yeni Azərbaycan Partiyasının hər bir üzvündə qürur hissi yaradır. Yeni Azərbaycan Partiyası uğurlu fəaliyyəti ilə dövlətin yeniləşmə siyasətinə dəstəyini təsdiqləyir. Bu gün inkişafın Azərbaycan modelinin mövcudluğunun beynəlxalq səviyyədə təsdiqlənməsi Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətə və bu siyasətin layiqli davamçısı YAP Sədri, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə söykənir".

M.Abasquliyeva çıxışında onu da vurğuladı ki, bu gün ölkəmizin bütün güşələrində dalğalanan, dövlətimizin suverenlik rəmzi sayılan bayrağımızın zəngin tarixi var: "Azərbaycan bayrağı milli ləyaqət simvolumuzdur. Onu başı üzərində uca tutmaq, vüqarla dalğalandırmaq hər bir azərbaycanlının şərəf borcudur. Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə Azərbaycanda Dövlət Bayrağı Günü təsis edilmiş və artıq hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur".

Tədbirdə Milli Məclisin deputatı, Azərbaycan Tələbə-Gənclər Təşkilatı İttifaqının sədri Şahin İsmayılov, Sabunçu rayon icra hakimiyyəti başçısının müavini Rəna Fərəcova, YAP Gənclər Birliyinin Sədri Seymur Orucov və başqaları çıxış edlərək, Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıblar. Çıxış edənlər, həmçinin, vurğulayıblar ki, dövlət bayrağımız millətimizin, xalqımızın azadlıq və istiqlal ideyalarının, milli varlığının, bəşər sivilizasiyasında özünəməxsus qədim və çağdaş mədəniyyətə sahib olduğunun təcəssümüdür. Tədbirin sonunda YAP-ın yaranmasının 25 illik yubileyi münasibəti ilə bir qrup partiya fəalları fəxri fərmanlarla təltif ediliblər.

**_RƏFİQƏ HÜSEYNOVA_**

# Üçrəngli bayrağımız istiqlal rəmzi və millətin var olmasının ən böyük göstəricisidir

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının şöbə müdiri, professor Rafail Əhmədlinin yap.org.az-a müsahibəsi*

***- Rafail müəllim, hər il 9 noyabr tarixi Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur. Sizcə, hər bir xalq üçün bayraq hansı anlam daşıyır?***

- Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət bayramı kimi qeyd etdiyimiz 9 Noyabr Dövlət Bayrağı Günü Azərbaycan xalqının ən əziz bayramlarından biridir. Bayraq millətin şərəfidir, istiqlal rəmzidir və hər bir millətin var olmasının ən böyük göstəricisidir. Bir müddət öncə ümumi bayraq kimi mövcud olan keçmiş Sovet İttifaqının bayrağı bəlkə də o nəslin çoxunun yadından çıxıb. Çünki o bayrağı görəndə yuxarıda sadaladığımız hisslər keçirə bilmirdik, sadəcə olaraq ona bir dövlət rəmzi kimi baxırdıq. Milli bayrağımızı görəndə isə şərəf və qürur duyuruq, bu bayrağı uca tutmağı, əbədiyyətə qədər var etməyi özümüzün ən ümdə vəzifəmiz kimi fikrimizdə canlandırırıq.

***- Bayrağın hər bir millət üçün önəmini qeyd etdiniz. Azərbaycan xalqının dövlətçilik tarixində bayraq amili nə dərəcədə yer tutur?***

- Ümumiyyətlə, dövlət mədəniyyətin ən yüksək forması olduğu üçün onu yalnız millət yarada bilər. Bu anlamda hər bir millətin öz dövlətçilik fəlsəfəsi vardır. Dövlət millət həyatının ən əhəmiyyətli bir fenomenidir. Dövlət və dövlətçilik tarixində millətimiz bəşəriyyətə çox önəmli töhfələr verib. Ən azı beş min illik dövətçilik tarixinə malik olan Azərbaycan xalqının çox zəngin dövlətçilik fəlsəfəsi, ictimai-siyasi tarixi, ideoloji, hüquqi və iqtisadi görüşləri vardır.

Tarixdə Azərbaycan dövlətləri və onların davamı sayılan Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycan Respublikası məhz bu ideoloji-siyasi əsaslara dayanaraq yaradılıb. Özünü 1918-1920-ci illərdə var olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi-siyasi varisi hesab edən müasir müstəqil Azərbaycan Respublikası o zaman xalqımızın yaratdığı üçrəngli bayrağa da yenidən sahib çıxaraq onu ucaltmış və dövlət bayrağı kimi qəbul edib. Bayraq dövlətin həyatında ən mühüm yer tutan atributlardan biri kimi çox önəmlidir. Çünki o mahiyyətində təmsil etdiyi dövlətin xarakterik xüsusiyyətlərini, mənalarını daşıyır.

***- Bəs 9 noyabrın təqvimə Dövlət Bayrağı Günü kimi daxil edilməsinin tarixi-siyasi əhəmiyyəti nədən ibarətdir?***

- 9 Noyabr Dövlət Bayrağı Günü təqviminin xalqımızın həyatında mənəvi-psixoloji cəhətdən çox önəmli yeri var. Öz dövlətçiliyinə, bayrağına sadiq olan, böyük önəm verən xalqımız üçün belə bir günü yaşaması, çox yüksəklərə ucalan bayrağın hər an görməsi ona qürur verir, şərəf duydurur. Dövlətini, dövlətçliyini, bayrağını sevməsi, canından artıq istəməsi üçün sanki yeni bir təkan verir.

***- Azərbaycan Respublikasının Dövlət bayrağı qanunvericilik səviyyəsində necə qorunur?***

- Məlumdur ki, parlament tərəfindən "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" qanun qəbul edilib. 8 iyun 2004 - cü il tarixində isə Milli Məclis "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" qanun qəbul edib. Həmçinin, "Dövlət bayrağı haqqında Əsasnamə" də qəbul olunub. Buna qədər bayraqdan necə gəldi istifadə olunurdu. İctimai - siyasi təşkilatlar, müxtəlif qurumlar dövlət bayrağını harda gəldi asırdılar. Bu da dövlətçilik təcrübəsinin zəif olmasından, insanlarda dövlətçilik şüurunun kifayət qədər yetkin olmamasından irəli gəlirdi. Ona görə də, vacib idi ki, belə bir qərar qəbul olunsun. Bu qərarlarla biz Azərbaycan bayrağının müqəddəsliyini, Azərbaycan bayrağının dəyərini bir daha anlamış, dərk etmiş olduq. Bayraq bir simvoldur. Bu simvolun arxasında isə milli dövlətçiliyimiz, milli şüurumuz, milli mənliyimiz, milli özünüdərkimiz dayanır. Bu mənada həmin sənədlər böyük əhəmiyyətə malikdir.



***- Üçrəngli bayrağımız bu gün mötəbər beynəlxalq təşkilatların qarşısında dalğalanır. Bu da çox qürurverici məqamdır...***

- Bəli, XX əsrin sonlarından o möhtəşəm üçrəngli bayrağımız beynəlxalq təşkilatların və dövlətlərin bayraqları sıralarında önəmli bir yer tutması, dalğalanması hər kəsdə, bütün millətimizdə qürur hissini artırır, şərəfli duyğu yaradır. Nəinki 10 milyona yaxın Azərbaycan vətəndaşları, dünyada yaşayan 50 milyona qədər azərbaycanlıların qürur mənbəyinə çevrilərək Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməsi üçün bir mayak rolunu oynayır. Son illərdə ölkəmizin beynəlxalq aləmdə qazandığı uğurlar içərisində respublikamızın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına müvəqqəti üzv seçilməsi, ona sədrlik etməsi və bu mötəbər beynəlxalq qurumda, onun kürsüsündə Azərbaycan Prezidenti İlham Əliyevi və bayrağımızı görəndə özümüzü dünyanın ən qürurlu milləti hesab etməyə haqqımız çatır.

***- Rafail müəllim, bu gün gənc nəslin müstəqil dövlətimizin atributlarına, o cümlədən bayrağımıza olan münasibətini necə dəyərləndirirsiniz?***

- Bu gün fəxrlə deyə bilərik ki, gənc nəslimizdə çox yüksək dövlətçilik hissi, Vətənə, millətə sevgi ruhu formalaşıb. Gənclərimizdə Vətən əxlaqı, millət əxlaqı formalaşıb. Artıq gənclərimiz müstəqil dövlətin nə olduğunu dərk edib onun bayrağını canları qədər sevir. Ölkəmizin əlamətdar günlərində vətəndaşlarımızın, xüsusilə gənclərimizin əlində saysız-hesabsız bayraqları gördükdə hər birimiz şərəf hissi keçirməyə bilmirik. Bayrağına, dövlətinə bu qədər bağlı olan, onu sevən gənclik hesab edirəm ki, müstəqil dövlətini heç zaman unuda bilməz.

Bununla yanaşı çalışmalıyıq ki, bayrağımızın simvolları onun özündə daşıdığı mahiyyəti böyüməkdə olan nəslimizə dərindən aşılayıb onun keçdiyi tarixi yolu tədris ocaqlarında hərtərəfli izah edək. "Türkçülük, müasirlik, islamçılıq" kimi mahiyyəti özündə əks etdirən ideoloji sistem XIX əsrin ikinci yarısından başlayan milli-mənəvi inkişafın nəticəsi olub, ədəbiyyatın, mətbuatın, ayrı-ayrı mütəfəkkirlərin, siyasət, elm, mədəniyyət və incəsənət xadimlərinin təfəkküründə formalaşıb, cəmiyyətə mərhələ-mərhələ təqdim edilərək sonda dövlət ideologiyası səviyyəsinə qaldırılıb. Bu ideoloji sistem rəsmiləşərək Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət atributu olan üçrəngli, ay-ulduzlu bayrağımızda əksini tapıb.

Bu ideoloji sistem xalqımıza eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunmasını, onun yüksəlişini təmin edən fəlsəfi-estetik təməli, onun nəzəri əsasını, milli tərəqqi təlimini bəxş edib. Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən devrilməsindən sonra bu üç sütunlu ideoloji sistemə yenidən müstəqillik qazanan Azərbaycan Respublikası sahib çıxdı. Mənəvi irsimiz olan bu ideoloji sistem bugünkü qloballaşma prosesində də öz aktuallığını saxlamaqdadır.

# Nəsimi rayon icra hakimiyyəti tərəfindən cəbhə bölgəsində 9 Noyabr- Bayraq Günü qeyd edildi

***Nəsimi rayon icra hakimiyyətinin nümayəndə heyəti 9 Noyabr - Bayraq Günü ilə bağlı Müdafiə Nazirliyinin Tərtər rayonundakı "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabitlərlə görüşüb. Qonaqlar hərbi hissə komandanlığı ilə birlikdə ön cəbhə xəttindəki səngərlərdə olub, əsgərlərimizin xidməti, məişət şəraiti ilə maraqlanıb, əsgərlərə bayram hədiyyələri verilib. Sonra Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov Dövlət Bayrağı Günü münasibətilə əsgərlərimizi təbrik edərək, onlara çətin və şərəfli xidmətlərinin yerinə yetirilməsində müvəffəqiyyətlər arzulayıb.***







Bildirib ki, ölkə başçısı İlham Əliyevin müvafiq Sərəncamı ilə hər il noyabr ayının 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur. A.Əsgərov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində işğal altında olan bütün Azərbaycan torpaqlarının düşməndən azad olunacağına, ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyinə əmin olduğunu, lazım gələrsə Ali Baş Komandanın əmri ilə silaha sarılaraq müharibə yolu ilə torpaqlarımızın azad olunması üçün bütün qüvvələrin səfərbər ediləcəyini bildiribdir. Rayon rəhbəri 2016-cı il aprelin 2-dən 5-dək mənfur ermənilərin təxribatlarına toxunaraq bildirib ki, döyüş qabiliyyəti, hərbi təcrübəsi və ruh yüksəkliyi olan ordumuz düşmənə sarsıdıcı zərbələr endirərək qələbə qazandı: "Erməni silahlı qüvvələri Azərbaycan Ordusunun nəyə qadir olduğunu gördü və bu güc qarşısında geri çəkilməyə məcbur oldu. Ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyev şanlı ordumuzun düşmənə layiqli cavabını qiymətləndirərək söyləmişdir: "Qəhrəman döyüşçülərimiz nəinki təxribatın qarşısını ala bildilər, eyni zamanda, daha əlverişli mövqelərə malik oldular. Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi... Biz böyük hərbi qələbəni qazandıq. Ermənistanın ordusu bu gün çox böyük zərbə almışdır. Atəşkəs rejimindən sonra ilk dəfədir ki, onlara belə sarsıdıcı zərbə vuruldu. Bunun günahkarları onlar özləridir".

Hərbi hissə komandanlığı adından çıxış edən korpus komandirinin şəxsi heyətlə iş üzrə müavini, polkovnik-leytenant Babək Səmidli şəxsi heyətin xidməti və döyüş hazırlığı barədə məlumat verib.

Bayram tədbirində hərbçilər tərəfindən Ali Baş Komandan İlham Əliyevin imzası yazıldı, marş sədaları altında 100 metr uzunluğunda Azərbaycan Bayrağının keçidi təşkil olundu.

Tədbirdə xidmətdə fərqlənən əsgər, çavuş və zabitlərin böyük bir qrupu Nəsimi rayon icra hakimiyyətinin xatirə hədiyyələri ilə mükafatlandırıldı.

Tədbir respublikamızın populyar müğənnilərinin ifasında böyük konsert proqramı ilə davam edib. Sonda qonaqlar hərbi hissənin şəxsi heyəti ilə birlikdə bayram süfrəsi arxasında nahar edib.

**RƏFİQƏ HÜSEYNOVA**

# ABŞ konqresmenindən və qubernatorundan Azərbaycana və Türkiyəyə qarşı aşkar HƏYASIZLIQ

*Tuluza Gebbard Şuşaya və Xankəndiyə qanunsuz səfər edib, İndiana isə " soyqırımı"nı tanıyan sayca 48-ci ştat olub*





***ABŞ-dakı erməni lobbisinin təsiri altında fəaliyyət göstərən konqersmen Tuluza Gebbard Dağlıq Qarabağın işğal olunmuş ərazilərinə qanunsuz səfər edib. Ermənistanın "1in.am" saytının yazdığına görə, ermənipərəst konqresmen özünün Ermənistana və Dağlıq Qarabağın işğal altındakı ərazilərinə etdiyi səfər təəssüratlarını bölüşərkən, aşkar həyasızlıq göstərərək bəyan edib ki, guya "Azərbaycanın ölkə rəhbərliyi tərəfindən təmas xəttində yürüdülən təcavüzkar siyasəti danışıqlar prosesinin pozulmasına səbəb olur".***

Erməni saytında, o da qeyd olunur ki, Gebbardın San-Fransiskoda düzənlənən ANCA forumunda səsləndirdiyi bu bəyanatını "Armenian Weekly" yazıb.

## Qondarma "DQR"i və "erməni soyqırımı"nı tanıyan Tuluza Gebbar və Erik Holkomb tarix qarşısında cavab verməyə məhkum olacaqlar!

Beləliklə, növbəti dəfə aşkar erməniпərəstlik həyasızlığı sərgiləyən ABŞ konqresmeninə görə, o Şuşada və Xankəndidə yaşayan ermənilərin işğal olunmuş ərazilərdə "gələcəyə necə uyğunlaşdıqlarının şahidinə çevrildiyini" deyib.

Lakin bu da son deyil. Tuluza Gebbard Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan bəyanatı ilə bildirib ki, guya ölkəmiz regiondakı vəziyyəti destabilizə edir və ölkə rəhbərliyimiz sülh danışıqlarında iştirak edən həmsədrlərin işlərinə mane olurmuş (?!-R.N.). Erməniпərəst konqresmen Havay ştatını təmsil etdiyini xatırladaraq, 2016-cı ildə bu ştatın qondarma "DQR"i "müstəqil ölkə" olaraq tanıdığını da bildirib.

Bütün bu kimi siyasi həyasızlıqlar isə, bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, bu gün Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində ikili standartların mövcudluğu ikili standartların nəticəsidir. Xüsusilə, münaqişənin həllində həmsədr ölkə kimi fəaliyyət göstərən bəzi erməniпərəst ABŞ konqresmenlərinin açıq şəkildə bənzər çıxışlara yol vermələri bu problemin ədalətli çərçivədə həllinə ciddi mane olur. Bu baxımdan, Tuluza Gebbardın məlum fəaliyyəti aşkar bu istiqamətə yönəlmiş addım olaraq qiymətləndirilə bilər.

Onu da qeyd edək ki, bu günlərdə daha bir ABŞ ştatı qondarma erməni soyqırımını tanıdığını bəyan edib. "Soyqırımı"nı 48-ci ştat olaraq tanıyan İndiananın qubernatoru Erik Holkomb bu dırnaqarası olayı qəbul edən sənədə imza atdıqlarını utanmadan bəyan edib. Hətta Amerikanın erməni milli komitəsinin şərq qanadı bununla bağlı informasiya yayıb ki, erməniпərəst qubernator noyabrın 6-dan 12-dək İndiana ştatında "Ermənistan həftəsi"nin keçirilməsi ilə bağlı qərar verib.

İndiana ştatının qubernatorunun sözlərindən vəcdə gələn erməni icması isə bir az da irəli gedərək, guya Osmanlı İmperiyasında "soyqırımı"na məruz qalmış ermənilərin bu gün "İŞİD" terror təşkilatı tərəfindən Yaxın Şərqdə xristianlara qarşı törədilən vəhşiliklərə bənzədiyini simasızcasına bəyan edib. Üstəlik, Türkiyə hökuməti "həqiqəti girovda saxlamaqda" ittiham olunub.

## Azərbaycanın və Türkiyənin birgə regional və beynəlxalq əməkdaşlığı kimlərisə bərk narahat edir

Beləliklə, bir daha sübuta yetirilib ki, real həqiqətləri və tarixi saxtalaşdıran erməni lobbisi Azərbaycan və Türkiyə dövlətlərinə qarşı çıxış etmək üçün var gücünü ortaya qoyub. Lakin ədalət həmişə qalib gəldiyi üçün haqq da batili yenib. Son zamanlar Azərbaycanın və Türkiyənin birgə regional və beynəlxalq əməkdaşlığı və bu əməkdaşlıq çərçivəsinə digər ölkələrin də qatılmaq maraqlarının artması, yüksəkliyi - əsl reallığı ortaya çıxaracaq. Bax, onda Tuluza Gebbard, Erik Holkomb kimi erməni lobbisinin puluna ağız suyu axıdanlar çox pis vəziyyətdə qalmalı olacaqlar. Çünki tarix qarşısında belələri cavab verməyə məhkumdurlar.

**Rövşən NURƏDDİNOĞLU**

# Sarkisyanı acınacaqlı faciə gözləyir

*Azər Badamov: "Sarkisyan qurultayda belə bir bəyanat səsləndirməklə erməni ictimaiyyətinin rəyini və reaksiyasını öyrənir"*



**Müsahibimiz millət vəkili Azər Badamovdur**

***- Azər müəllim, Sarkisyan Respublikaçılar Partiyasının qurultayında Dağlıq Qarabağ münaqişəsinin həllində güzəştə gedilməsinin vacibliyini dilə gətirib. Sizcə, gözlənilmədən hərbi xunta rəhbərinin güzəştdən danışması nəyin əlamətidir?***

- Düşünmürəm ki, Dağlıq Qarabağ münaqişəsinin həllində Sarkisyan, könüllü olaraq hər hansı bir güzəştə razı olsun. Çünki vaxtilə sabiq prezident Ter-Petrosyanı da Azərbaycanla razılığa gəldiyinə görə dərhal devirmişdilər. İndi isə Sarkisyan fərqli bəyanatlar yayır. Bir dəfə qeyd edib ki, Ermənistan Dağlıq Qarabağla bağlı heç bir güzəşti müzakirə etməyəcək. İndi isə deyir ki, müəyyən güzəştlər oluna bilər. Burada Sarkisyanın iki məqsədi ola bilər. Birinci odur ki, Ermənistan iqtisadiyyatı çox ağır durumdadır və əhalisinin sosial vəziyyəti günü-gündən pisləşməkdədir. Düşdükləri ağır vəziyyətdən yeganə çıxış yolunu da Azərbaycanla səmimi qonşuluq münasibətlərinin yaradılmasından keçdiyini çox yaxşı bilirlər. Ona görə də, Sarkisyan qurultayda belə bir bəyanat səsləndirməklə, erməni ictimaiyyətinin rəyini və reaksiyasını öyrənir. İkincisi isə, yaxın günlərdə Türkiyə və Rusiya prezidentlərinin görüşü gözlənilir və bu görüşdə Dağlıq Qarabağ məsələsinin müzakirə olunacağı haqqında məlumatlar verilir. Əgər cənab Ərdoğan və Putin Dağlıq Qarabağ məsələsini müzakirə edib, konkret addım atmaq planlarını açıqlayarsa, Sarkisyan da qabaqcadan erməni ictimaiyyətini məsələnin həlli istiqamətində atılacaq addımlara bəyanat səsləndirməklə hazırlamaq istəyir.

***- Sizcə, erməni cəmiyyətinin Sarkisyana inamsızlığı nə ilə bağlıdır?***

- Ermənistanda Sarkisyana daxili inamsızlıq çoxdan vardır. Çünki Sarkisyan hakimiyyətdə olduğu illərdə Ermənistanda iqtisadiyyat tamam çökmüşdü. Müsbət irəliləyişə doğru heç bir addım atılmamışdır. Dağlıq Qarabağ problemi də Ermənistan üçün böyük bəlaya çevrilib və düşdükləri vəziyyətdən çıxmaq üçün cinayətkar rejimə qarşı narazılıqlar günügündən artmaqdadır. Vəziyyətin belə kritik hal aldığını görən Sarkisyan güzəştlər səsləndirərək, məsələnin həllinə maraqlı olduğunu nümayiş etdirməklə xalqın etimadını bərpa etmək istəyir. Amma düşünürəm ki, Sarkisyan rejimi mütləq dəyişilməlidir. Əks halda, Ermənistanda böyük etiraz dalğası qızışa bilər.

***- Bəzi KİV-lərin iddialarına görə, Dağlıq Qarabağ münaqişəsinin həlli və 5 rayonun azad edilməsi üçün Rusiyanın müvafiq şərt irəli sürdüyü bildirilir. Sizcə, şərtlər nə dərəcədə münaqişənin həlli üçün bir vasitə ola bilər?***

- Cənab Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan torpağı danışıqlar və şərtlər mövzusu ola bilməz. Ola bilər ki, münaqişənin həlli mərhələli şəkildə həyata keçsin. Çünki burada müəyyən məsələlər ortaya çıxacaq ki, məsələnin mərhələli həll variantı olmadan münaqişənin sülh yolu həlli çətin olacaq. Biz bunu başa düşürük. Amma Azərbaycanın müstəqilliyinə xələl gətirəcək hər hansı şərtin müqabilində məsələnin həll olunacağı mümkün deyil. Əgər belə şərtlər müqabilində 5 rayonumuzu azad etmək istəyimiz olsaydı, bu, çoxdan baş vermişdi. Düşünürəm ki, ən düzgün yolu ölkə başçımız bilir və o istiqamətdə də torpaqlarımız işğaldan azad olunacaqdır.

***- Ümumiyyətlə, şərtlərlə münaqişənin həllinə maraq göstərmək nə dərəcədə beynəlxalq hüquq normalarına əsaslana bilər?***

- Yuxarıda da qeyd etdim ki, Azərbaycan ultimativ tələbləri qəbul etmir. Ölkəmizin ərazi bütövlüyü dünya tərəfindən tanınmışdır. Dünya həm də Ermənistanı işğalçı dövlət kimi tanıyır və torpaqlarımızı işğaldan qeyd - şərtsiz azad edilməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının və bir sıra mötəbər beynəlxalq qurumların bəyanat və qərarları mövcuddur. Biz də istəyirik və tələb edirik ki, beynəlxalq hüquq normalarına uyğun münaqişə həll olunsun, ədalət bərpa edilsin. Düşünürəm ki, bu, belə də olacaqdır. Ayrı bir həll variant isə öz hərbi gücümüzlə ədaləti bərpa etməkdir.

**GÜLYANƏ**

## Vladimir Evseev: Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında əhəmiyyətli rol oynayır



Azərbaycan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin formalaşmasında əhəmiyyətli rol oynayır. Bu sözləri "Pars Todey" saytına müsahibəsində MDB İnstitutunun direktor müavini Vladimir Evseev deyib. O bildirib ki, Rusiya ilə Azərbaycan arasında dəmir yolu mövcuddur və bu yol fəaliyyət göstərir. Rəşt-Astara yolunun çəkilişinə maraq göstərən və bu yolun inşasına sərmayə yatırmağa hazır olan Azərbaycan Rusiya ilə İranın dəmir yollarının birləşməsində mühüm amil olacaq.

Azərbaycanın iqtisadi potensialını yüksək qiymətləndirən V.Evseev qeyd edib ki, Azərbaycan İran ilə Rusiyanın iqtisadi və siyasi əlaqələrinin inkişafında da önəmli faktordur. Azərbaycan, Rusiya və İran prezidentlərinin noyabrın 1-də Tehrandakı görüşünə toxunan V.Evseev hər üç ölkənin iqtisadi maraqlarının üstüstə düşdüyünü və bundan səmərəli istifadə olunduğunu deyib.

## BMT-nin hesabatı: 300 mindən çox 17 yaşına çatmamış uşaq hərbi birləşmələrə cəlb olunub

BMT-nin 2017-ci ildə dünyada uşaqların inkişafı ilə bağlı hesabatı dərc olunub. Hesabata göstərilir ki, müxtəlif münaqişələr və silahlı toqquşmalar nəticəsində 300 mindən çox 17 yaşına çatmamış uşaq hərbi birləşmələrə cəlb olunub. Təkcə Sudanda baş verən vətəndaş müharibəsində 20 uşaq silahlanaraq hərbi birləşmələrə qoşulub. Bu uşaqlar soyğunçuluq, qarət və qətllər törədirlər. Uşaqların qanunsuz hərbi birləşmələrə cəlb edilməsi xüsusilə Afrika ölkələrində müşahidə edilir. Siyahıya Somali, Konqo, Sudan, Mərkəzi Afrika Respublikası başçılıq edir. Suriya, İraq, Əfqanıstanda da uşaqlar terror qruplaşmalarına cəlb edilir və onlardan kamikadze kimi istifadə olunur. BMT Konvensiyasının 38-ci maddəsinə əsasən, 17 yaşına çatmayan uşaqların hərbi birləşmələrə cəlb edilməsi qadağandır.

# "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır"

*YAP Kürdəmir rayon təşkilatının qadınlar şurasının təşkilatçılığı ilə bu mövzuda dəyirmi masa keçirilib*



Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə partiyanın Kürdəmir rayon təşkilatı silsilə tədbirlər keçirməkdə davam edir. Bu məqsədlə YAP Kürdəmir rayon təşkilatının qərargahında rayon təşkilatının qadınlar şurası "Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır" mövzusunda dəyirmi masa keçirib.



Öncə dəyirmi masa iştirakçıları rayon təşkilatının qərargahında yerləşən Ulu Öndər Heydər Əliyevin büstü önünə gül-çiçək dəstələri düzüblər.

Dəyirmi masanı giriş sözü ilə YAP Kürdəmir rayon təşkilatı qadınlar şurasının sədri Sevda Hacıyeva açaraq tədbir iştirakçılarını partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə təbrik edərək, məruzə ilə çıxış edib. S.Hacıyeva məruzəsində partiyanın yaranma tarixindən, ötən 25 il ərzində görülən işlərdən danışıb. O, Yeni Azərbaycan Partiyasının yaranması və Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı haqqında məlumat verərək, ötən dövrlərə qısa tarixi ekskurs edib. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının yaranması və Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqımızın yoluna işıq saçdı. Partiya müxalifət partiyası olaraq yaranmasına baxmayaraq qısa müddət ərzində xalqın inamını qazandı və iqtidar partiyasına çevrildi. Bununla da Azərbaycan dövləti və xalqı məhv olmaq təhlükəsindən xilas oldu, sabit dövlətçilik ənənələri quruldu və müstəqilliyimiz daha da möhkəmləndirildi.

Görüşdə çıxış edən Kürdəmir rayon İH başçısının müavini Vəsilə Əsgərli, rayon təşkilatının şura üzvü, Uşaq-İncəsənət Məktəbinin direktoru Qəndaf Zülfüqarova, rayon təşkilatının qadınlar şurasının üzvü, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional şöbəsinin müdiri Yaqut Əşrəfova partiyanın yaradılmasının 25 illik yubileyi münasibətilə öz təbriklərini çatdıraraq, qeyd ediblər ki, qadınlar ölkədə hər bir sahədə təmsil olunurlar və öz fəaliyyətləri ilə fərqlənirlər.

Daha sonra Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin əməkdaşı Camaləddin Quliyev çıxış edərək bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ümummilli Liderimiz Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etmiş, Azərbaycan torpağının, Azərbaycan dövlətinin, Azərbaycan xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün olan hər bir işi görmüşdür: "Ölkə rəhbəri Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət təkcə artıq tarixə çevrilmiş nailiyyətlərimizin deyil, həm də gələcək uğurların həlledici əsasıdır".

Sonda YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli çıxış edərək dəyirmi masa iştirakçılarını və onların simasında bütün rayon sakinlərini əlamətdar gün münasibətilə təbrik edərək bildirib ki, Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti öz taleyini, övladlarının gələcəyini YAP-a etibar edir və ona etimad göstərirlər: "Partiyanın tarixi Azərbaycanın müstəqillik dövrü ilə sıx vəhdət təşkil edir.YAP ölkəmizin yaxın keçmişinin şərəfli salnaməsidir, xalqa və dövlətə xidmət nümunəsidir. Bu gün partiyamız Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə öz prinsiplərinə sadiqliyini nümayiş etdirərək, ölkənin aparıcı qüvvəsi kimi formalaşaraq, ümumxalq partiyasına çevrilib".

Dəyirmi masa maraqlı diskussiya və müzakirələrlə işini başa vurub.

***Rövşən RƏSULOV***

# YAP Yevlax şəhər təşkilatında partiyanın yaranmasının 25 illik yubileyi ilə bağlı tədbirlər davam edir




Dünən Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının tədbirlər planına əsasən, partiyanın yaranmasının 25 illik yubileyi ilə bağlı şəhər təşkilatı və icbari tibbi sığortanın tətbiq olunduğu şəhər Mərkəzi Xəstəxanası ərazi ilk təşkilatında "Yeni Azərbaycan Partiyası 25 il uğurla" mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər. Tədbirlə ərazi ilk partiya təşkilatının sədri Məhərrəm Gülməmmədov ötən 25 il ərzində partiyanın şərəfli yol keçdiyini bildirib: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP müasir Azərbaycanın inkişafının əsas dəstəkçisinə çevrilib".



Natiq qeyd edib ki, YAP öz intellektual səviyyəsi, sosial bazası və Ümummilli Liderin siyasi kursu sayəsində qısa müddətdə ölkənin aparıcı qüvvəsi kimi formalaşaraq, ümumxalq partiyasına çevrildi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində tezliklə Azərbaycanda siyasi sabitlik bərqərar oldu və ölkənin parçalanması təhlükəsi aradan qalxdı.

Tədbirdə YAP Yevlax şəhər təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev, şəhər təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova və digərləri çıxış edərək, vurğulayıblar ki, Ulu Öndərin ideyaları Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə reallaşdırılır. Çıxış edənlər Azərbaycanda dövlətçiliyin qorunmasında, ölkəmizin tərəqqisində YAP-ın rolunu xüsusi vurğulayaraq onu da qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq, bu partiyanın sıralarına qoşulmuş 700 mindən artıq insan partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizin inkişafına mühüm töhfələr verirlər.

***RƏFİQƏ***

# Tərtər rayonunda Bayraq Günü ilə bağlı tədbir keçirilib

Dünən YAP Tərtər rayon təşkilatı gənclər birliyinin təşkilatçılığı ilə rayon təşkilatında Azərbaycan Respublikası Dövlət Bayrağı Günü münasibəti ilə "Müstəqilliyimizin və milli mənsubiyyətimizin müqəddəs rəmzi olan bayrağımız" mövzusunda dəyirmi masa keçirilib.



Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının aparat rəhbəri Kamil Məmmədov qeyd edib ki, dövlət rəmzlərindən olan bayraq hər bir xalqın qürur mənbəyi olmaqla, yaşadığı dövlətin təqdim olunmasında başlıca göstəricidir: "Dövlət bayrağı xalqı öz ətrafında birləşdirib, dövlətin sosial-iqtisadi və mənəvi dəyərlərinin qorunub-saxlanılması üçün səfərbəredici rola malikdir. Üçrəngli bayrağın dövlət rəmzi kimi bərpası təşəbbüsü ilk dəfə Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülüb. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycanda Dövlət Bayrağı Gününün təsis edilməsi barədə Sərəncamı gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından mühüm əhəmiyyət kəsb edir".

K.Məmmədov onu da vurğulayıb ki, Azərbaycan gəncləri dövlət bayrağımızı daim ucalarda tutmalı, üçrəngli bayrağımız ətrafında sıx birləşərək, dövlətimizin müstəqilliyinin qorunub-saxlanılması, onun iqtisadi qüdrətinin artırılması, milli-mənəvi dəyərlərimizin unudulmaması istiqamətində görülən işlərdə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin yeritdiyi daxili və xarici siyasəti, birmənalı şəkildə müdafiə etməklə xalqımızın uğurlu və xoşbəxt gələcəyə doğru irəliləməsində ön cərgələrdə olmalıdırlar".

"Dəyirmi masa"da rayon təşkilatı gənclər birliyinin üzvü, rayon təhsil şöbəsi ərazi ilk partiya təşkilatının sədri İntiqam Nuruyev, rayon 6 saylı tam orta məktəbin təşkilat işləri üzrə direktor müavini Zülfiyyə Abdullayeva, Qapanlı kənd tam orta məktəbinin tarix müəllimi -Sadiq Əhmədov, Təzəkənd ümumi orta məktəbinin müəllimi Elçin Maqsudov, Evoğlu kənd tam orta məktəbinin müəllimi Nüşabə Hüseynova, Səhləbad kənd tam orta məktəbinin müəllimi Nurlan Baratzadə, -Səhləbad kənd kitabxanasının müdiri Səadət Tağıyeva və başqaları çıxışlarında yeniyetmə və gənclərə bayraq sevgisinin daha geniş şəkildə aşılanmasının vacibliyindən danışıblar.

Natiqlər çıxışlarında qeyd ediblər ki, gün gələcək biz ölkə Prezidentinin qüdrətli siyasəti sayəsində torpaqlarımızı işğaldan azad edəcəyik və üçrəngli bayrağımız Qarabağda dalğalanacaqdır.

***R.KAMALQIZI***

# Vassal ölkənin görünməyən tərəfləri

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı uzun illərdir davam edən status-kvo Azərbaycan tərəfindən, qəbul edilmir. Son illər problemin həlli ilə bağlı təşəbbüsü öz əlinə alan Rusiya danışıqların davam etdirilməsinin vacibliyini vurğulasa da, Ermənistana işğal etdiyi torpaqları azad etmək üçün təzyiq göstərmir. Bu 25 ildə Ermənistan-Rusiya münasibətləri heç bir zaman iki müstəqil dövlət arasındakı münasibətlər kimi olmamışdır və bundan sonra da olmayacaqdır. Çünki Ermənistan siyasi, iqtisadi, hərbi və təhlükəsizlik baxımından Rusiyadan asılıdır. Maraqlı odur ki, bu asılılıq hər keçən gün Ermənistanın əleyhinə artır. Ermənistanın Rusiyadan asılılığını gücləndirən və davam etdirən başlıca amil Azərbaycan torpaqlarını işğal etməsidir. Dağlıq Qarabağ, sözün həqiqi mənasında, Ermənistanın kürəyində künküldür. Erməni politoloqları bildirirlər ki, Ermənistanın müalicə etməkdən imtina etdiyi o künkülü isə hər keçən il onun onurğa sütununu bir daha əyir, bir daha Rusiyaya doğru meyilli edir, bir daha bu ölkədən asılılığı artırır.**

## Politoloqlar bu asılılığın Ermənistanın əleyhinə artdığını bildirirlər

### Sergey Qerasimçuk: "Ermənistan Rusiyanın vassalı olmağı seçdi"

Ukraynanın təhlükəsizliyi və strategiyası araşdırma qrupunun rəhbəri politoloq Sergey Qerasimçuk sözügedən məsələ ilə bağlı açıqlamasında bildirib ki, Ermənistanın Rusiyanın vassalı olmaqdan başqa çıxış yolu yoxdur: "Ermənistanın özünü Rusiyadan tam asılı vəziyyətə salması o deməkdir ki, ölkənin təhlükəsizliyi yoxdur. Ermənistanın xarici siyasət kursunu kəskin şəkildə dəyişməsi böyük səhvdir. Əgər Ermənistan Avropa İttifaqı ilə saziş imzalasaydı, beynəlxalq ictimaiyyət ölkənin sabitliyində maraqlı olar və buraya investisiya yatırardı. Ermənistan isə Rusiyanın vassalı olmağı seçdi".

Bu məsələni dəyərləndirən erməni ekspert İqor Muradyan "168 Jam" qəzetinə açıqlamasında bildirib ki, son proseslər Rusiyanın Azərbaycan vasitəsilə Ermənistana təzyiqləri artırdığını göstərir: "Təmas xəttində baş verənlər göstərir ki, Azərbaycan konkret regional layihələrin icrasına başlamaqla bağlı həm Qərbə, həm də Rusiyaya mesaj verir. Ermənistan dövlət olaraq özünü qorumaq üçün konkret mobil proqramlar icra etməlidir. Amma biz görürük ki, şəxsən Putin Ermənistanı alçaltmaqla məşğuldur. Belə görünür ki, Rusiya qarşısına erməni xalqını və Ermənistanı alçaltmaq məqsədi qoyub. Kreml məcbur edir ki, Ermənistan özünün vassal və alçalmış statusunun qanuni olduğunu etiraf etsin".

### Albert Baqdasaryan: "Azərbaycan Qarabağı tamamilə alacaq, Ermənistan isə yer üzündən yox olacaq"

Ermənistanda "Qarabağ" komitəsinin üzvü Albert Baqdasaryan sözügedən məsələ ilə bağlı bildirib ki, dünyada heç bir ölkə Ermənistana tərəfdaş kimi baxmır, etibar etmir: "Ən yaxşı halda bu gün Ermənistana Rusiyanın vassalı və "kukla ölkəsi" kimi baxırlar. Rusiya ermənilərin müttəfiqi deyil. Ermənistan hakimiyyəti isə son zamanlar həyasızcasına hər şeyi etdi ki, ölkə atılmış olsun. Atılmış ölkənin nə demək olduğu aydındır: dünyada heç kim sənə partnyor kimi baxmır və etibar etmir. Ən yaxşı halda isə, Rusiyanın vassalı kimi baxacaqlar. Görünür, bizim hakimiyyət dövlətçilik siyasətini rəhbər tutmur. Misal üçün, müharibə gedirdi, amma onlar susurdular. Ancaq müharibənin dördüncü günü, eləcə də, əvvəlki və sonrakı günləri göstərdi ki, Ermənistanda xarici işlər naziri yoxdur".

Erməni siyasətçi rəsmi Yerevanın Moskvanın "kuklası" olduğunu vurğulayıb: "Rusiya bizə nə iqtisadi, nə də hərbi yardım etmir. Sarkisyan dəfələrlə etiraf edib ki, biz 80-ci illərin silahları ilə döyüşürük. Biz indi dilənçi vəziyyətindəyik".

Baqdasaryan onu da qeyd edib ki, Rusiya bir neçə onillikdən də az yaşayacaq və dağılacaq: "Əslində, bunun daha tez baş verməsi ehtimalı böyükdür. O zaman Azərbaycan Qarabağı və digər rayonları tam olaraq alacaq. Ermənistan isə, ümumiyyətlə yer üzündən silinəcək".

Beləliklə, Ermənistan dövləti, hökuməti və vətəndaşları anlamalıdırlar ki, Azərbaycanın Dağlıq Qarabağa təklif etdiyi yüksək muxtariyyət statusu ilə razılaşıb münaqişəni həll etmədikləri müddətdə iqtisadi inkişafa, siyasi sabitliyə təhlükəsizlik problemlərinin həllinə fürsət tapmayacaqlar. Ermənistan prezidenti Sarkisyan sağlam məntiqlə düşünməyə məcburdur, əgər düşünməyə qadirdisə, sadəcə, bundan başqa yolu qalmayıb.

**A.SƏMƏDOVA**














TƏRS BAXIŞ

# Əli Kərimli niyə II Yelizaveta barədə susdu?

*Yaxud Avropada ofşor qalmaqalı "Milli Şura"nın gölünə daş saldı*

**Bütün çıxışlarında Azərbaycan hakimiyyətinə qarşı qarayaxma kampaniyaları apararaq, dövlət rəsmilərinə böhtan atan AXCP sədri Ə.Kərimliyə bu dəfə Avropadan sarsıdıcı zərbə gəldi. Daha dəqiq desək, hazırda qoca qitənin siyasi çevrələrini silkələyən ofşor qalmaqalı üzə çıxıb. Qalmaqallı siyahıda prezidentlərin, baş nazirlərin, kral və kraliçaların adları hallanmaqdadır.**

Ə.Kərimliyə dəyən zərbə isə bir faktor üzərindən yönəlib - ofşor qalmaqalında adları hallanan nüfuzlu ictmaisiyasi xadimlərin arasında, ümumiyyətlə, Azərbaycanın dövlət rəhbərliyinin adı yoxdur! Məhz bu faktor "Milli Şura"nın bir-birindən rüsvayçı aksiyalarında səslənən fikirlərə tərs şillə, hətta qurşaqaltı zərbə effektini yaşatmaqdadır. Maraqlısı da budur ki, sosial şəbəkələrdə özü və saxta profilləri vasitəsilə "qəhrəmanlıq" edən, danışanda isə ağzına çullu dovşan sığışmayan Ə.Kərimli hələ də susmaqda davam edir. Çünki mövcud reallıq ona sərf etmir və zaman-zaman ölkədə sabitliyi pozmağa yönəlmiş xarici siyasi dairələrin də sözügedən qalmaqallı siyahıda yer alması, artıq nəyin necə olduğunu kifayət qədər sübuta yetirmiş olub.

## "Paradise Papers"in şok rəqəmləri

Bəs nə baş verib? Bəlli olub ki, Böyük Britaniya kraliçası II Yelizaveta ofşor hesablara təqribən 10 milyon funt sterlinq (13 milyon ABŞ dolları, ya da 22 milyon manat-R.N.) sərmayə qoyub.

Bu faktı isə Vaşinqtonda yerləşən Beynəlxalq Jurnalist Araşdırmaları Konsorsiumunun yaydığı "Paradise Papers" hesabatlarında vurğulanıb. Bəlli olub ki, Britaniyanın monarx ailəsinin başçısı bu pulları 2004-2005-ci illərdə Kayman və Bermud adalarında qeydiyyatdan keçmiş fondlara yatırıb.

Məlumata görə, bu pullar, çox güman, II Yelizavetanın ona məxsus olan Lankaster hersoqluğundakı 500 milyon funt-sterlinq dəyərindəki daşınmaz əmlakdakı payından qazandığı dividendlərdir.

## Britaniya mətbuatı nədənsə, kraliçanın ofşor hesablara pul qoymağa hüququ olub-olmadığı məsələsi barədə heç bir aydınlıq gətirmir

İndi Böyük Britaniyanın hakim dairələrinə və monarx ailəsinə bağlı KİV-i hər vəchlə ortaya çıxan faktı dünyanın ictimai rəyindən gizlətməyə cəhdlər edir. Guya bu əməliyyatlarda qeyri-qanuni heç nəyin olmadığını, kraliçanın daim vergi ödədiyini yazan Britaniya mətbuatı nədənsə, kraliçanın ofşor hesablara pul qoymağa hüququ olub-olmaması məsələsi barədə heç bir aydınlıq gətirmir. Əslində, bu aydınlığın



gətirilməməsi də sübut edir ki, artıq işişdən keçib və korrupsiya faktı ortadadır. Bundan sonra edilən, ya da ediləcək bəhanələr isə heç də ictimai rəyi inandırmayacaq.

## Donald Trampın yüksək çinli administrasiya üzvləri, Kanadanın baş naziri Castin Trüdonun, eləcə də nüfuzlu "Uber", "Apple", "Nike" şirkətlərinin top-menecerlərinin adları sözügedən siyahıda "bərq" vurur

Yuxarıda da qeyd etdiyimiz kimi, ofşor qalmaqalında yalnız Brtitaniya şahzadəsinin deyil, digər nüfuzlu siyasət adamlarının da adları hallanır. Misal üçün, ABŞ prezidenti Donald Trampın yüksək çinli administrasiya üzvləri, Kanadanın baş naziri Castin Trüdonun, eləcə də nüfuzlu "Uber", "Apple", "Nike" şirkətlərinin top-menecerlərinin adları sözügedən siyahıda "bərq" vurur.

Beləliklə, ortada danılmaz faktlar var. Bu faktları bir müddət öncə yayılmış digər məlumat da sübuta yetirir. Məsələn, Bermud adalarında qeydiyyatdan keçmiş və "Appleby" şirkəti, xüsusilə, ofşor zonası yaradaraq, Avropadan olan fəal müştərilərinə xidmət göstərib. Lakin hazırda üzə çıxan faktlarla bağlı "Appleby" şirkəti daha öncədən xəbərdarlıq etməyi də unutmayıb. Belə ki, hələ ötən ayın sonlarında "The Teleqraph" da yazırdı ki, artıq adları üzə çıxmış müştərilərin məxfi məlumatlarını ötən il hakerlər ələ keçirib. Bu baxımdan, xəbərdarlıqlar da edilib və qeyd olunub ki, offşorlar barədə məlumatlar yaxın vaxtlarda yayıla bilər. "Appleby" öz müştərilərinə tövsiyə edir ki, "İndidən hüquqi müdafiəyə hazırlaşsınlar və öz imiclərini müdafiə etmək üçün PR-mütəxəssislər tutsunlar"- deyə sözügedən məqalədə bildirilib.

## Avropa qurumları maltalı araşdırmaçı jurnalistin qətlə yetirilməsinə niyə susur?

"The Teleqraph" onu da qeyd etmişdi ki, Avropanın və dünyanın nüfuzlu ictimai-siyasi xadimlərinin, o cümlədən, şirkət və korporasiyalarının ofşor ifşalarını əldə etdiyi sənədlər əsasında araşdırmasını aparan Malta jurnalisti avtomobilinin partladılması nəticəsində qətlə yetirilib. Maraqlıdır, hansı səbəbdən, Avropanın müxtəlif qurumlarının "ağıl qoymağı xoşlayan" başbilənləri araşdırmaçı jurnalistin qətlinə qarşı bəyanat yaymayıblar? Niyə "Reportyorların Azadlıq Təşkilatı", yaxud "HRW", "Freedom House", "Amnesty İnternational" və s. qərəzli təşkilatlar bu faktı sükutla qarşılayıblar? Nəyə görə Ə.Kərimli ən azından, araşdırmaçı jurnalistin qətlini pisləyən bir kəlmə belə olsa söz işlətməyib?

Bütün bunlar isə, sübut edir ki, korrupsiya və s. kimi əməllərin sübutu, faktiki olaraq, ortadadır və belə bir siyahı Ə.Kərimlinin kürkünə, necə deyərlər, birə salıb. Çünki onun Azərbaycan hakimiyyətinə qarşı atdığı şərböhtanları sübuta yetirilməmiş qalıb. Ən azından, bu qalmaqalda ölkəmizin, ümumiyyətlə, adı hallanmayıb. Elə isə sual yaranır: görəsən Ə.Kərimli niyə bu barədə susur? Yoxsa Avropanı silkələyən "Paradise Papers"nin hesabatı onu, həqiqətən də, nokauta salıb?

***Rövşən NURƏDDİNOĞLU***

***P.S. Yeri gəlmişkən, AXCP sədri Ə.Kərimli hələ də əldə etdiyi gəlirləri barədə ictimaiyyətə yalan-palandan başqa doğru-dürüst heç bir məlumat verməyib. Əcəba, növbəti ofşor qalmaqalı dalğasında onun və Brtitaniyada kef çəkən oğlu Türkel Kərimlinin də adının üzə çıxmayacağına kim zəmanət verə bilər? Atalar demişkən, nə tökərsən aşına o da çıxar qaşığına. İndi buyursun, Ə.Kərimli qaşığına çıxan ofşorlu plovdan istədiyi qədər yesin!***

# Vyetnamda fırtına qurbanlarının sayı artır: 69 nəfər ölüb, 30 nəfər itkin düşüb

Asiya-Sakit Okean İqtisadi Əməkdaşlığı Təşkilatı (APEC) liderlərinin sammitinin keçirildiyi Vyetnamda fırtına qurbanlarının sayı artmaqda davam edir. AZƏRTAC xəbər verir ki, "Viet Nam News" qəzetinin yaydığı məlumata görə, təbii fəlakət nəticəsində həlak olanların sayı 69 nəfərə çatıb, 30 nəfər isə itkin düşmüş sayılır.



Bir qədər əvvəl 41 nəfərin öldüyü, 27 nəfərin itkin düşdüyü bildirilirdi. Təbii fəlakətdən ən çox sammitin keçiriləli olduğu Dananqa şəhərindən 500 kilometr cənubda yerləşən Nyaçanq şəhəri zərər çəkib. Burada küləyin sürəti saatda 90 kilometrə çatıb. Güclü külək 119 min evin dam örtüyünü qoparıb, 1400 min evi dağıdıb, yüzlərlə elektrik direyini aşırıb. Bir sıra rayonlarda yolları su yuyub, məktəblərdə dərslər dayandırılıb.

Vyetnamın Baş naziri Nqyen Syan Fuk yerli hakimiyyət orqanlarından xüsusilə sammitin keçirildiyi Dananq şəhərində və Kyanqam vilayətində təbii fəlakətin fəsadlarının mümkün qədər tez aradan qaldırılmasını tələb edib. Xatırladaq ki, APEC-in sammitində ABŞ Prezidenti Donald Tramp, Rusiya Prezidenti Vladimir Putin, Yaponiyanın Baş naziri Sinzo Abe, Çin Xalq Respublikasının Sədri Si Çinpin və bir sıra digər dünya liderlərinin iştirakı gözlənilir.

# "Bu, müxalifət liderlərinin faciəsidir"

*Təhmasib Novruzov: "Müxalifət təmsilçiləri hər bir işi pul qarşılığında görürlər "*

**Son vaxtlar müxalifət düşərgəsində təmsil olunan partiya yetkililəri arasında qarşıdurmaların daha da gərginləşdiyi müşahidə olunur. Səbəb yenə də eyni məsələ, eyni iddia və eyni motivdir. Yəni önə çıxmaq və müxalifətin əsas aparıcı partiyası və lideri olmaqdır.**



"Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirdi ki, müxalifət liderlərinin məqsədləri siyasi oyunbazlıq vasitəsi ilə pul qazanmaq və boş qalan ciblərini doldurmaqdan ibarətdir: "Radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin xaricə getdikləri zaman havadarlarının qarşısında öz ölkələri haqqında reallığı özündə əks etdirməyən fikirlər səsləndirmələrini, ilk növbədə, mənəviyyatsızlığın nümunəsi hesab edirəm. Birmənalı şəkildə demək olar ki, müxalifət təmsilçiləri hər bir işi pul qarşılığında görürlər. O cümlədən də, müxalifətin ölkədə heç bir mənası olmayan aksiyalar keçirməsinin də məqsədi maddi maraqdır. Çünki xaricdə elə qüvvələr var ki, Azərbaycan dövlətinin inkişafına çox paxıllıq edir və bu günə qədər əldə edilən uğurlara kölgə salmaq istəyirlər. Bunu da dağıdıcı müxalifətin əli ilə etmək istəyirlər. Demək olar ki, müxalifət xarici qüvvələrin əlində bir oyuncağa çevrilib. Amma onların nə etmələrindən asılı olmayaraq, heç vaxt daxili və xarici qüvvələr məkrli istəklərinə çatmayacaqlar ".

T.Novruzov qeyd etdi ki, müxalifət daim yersiz hərəkətlərə əl ataraq, xaricdən özünə dəstək axtarmaqla məşğul olub: "Müxalifət təmsilçiləri çox gözəl bilirlər ki, onlara xalqımızın və cəmiyyətimizin heç bir siyasi dəstəyi yoxdur. Bunu onların üzləşdikləri seçki məğlubiyyətləri və keçirdikləri aksiyaların uğursuzluqla nəticələnməsi də təsdiq edir. Dağıdıcı ünsürlər özləri-özlərini aldatmaqla məşğul olurlar. Müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar nəyəsə nail olacaqlar. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu, müxalifət liderlərinin faciəsidir ".

T.Novruzov onu da bildirdi ki, müxalifət liderləri arasında gedən savaş birincilik uğurundadır: "Savaş və qarşıdurmalar düşərgə daxilində ciddi problemlərin yaranmasına gətirib çıxarır. Bu şəxslər üçün partiya maraqları yox, özlərinin şəxsi maraqları daha üstündür. Vəziyyətin idarəolunmaz hal alması müxalifət partiyalarının dağılmasını şərtləndirən başlıca amildir".

***GÜLYANƏ***

# Azərbaycanın milli mədəniyyətinin dirçəlişində ULU Öndər Heydər Əliyevin rolu

***Ulu Öndər Heydər Əliyevin Azərbaycan milli mədəniyyətinin dirçəlişində müstəsna rolu olmuşdur. Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayında çıxış edərək, Azərbaycan milli mədəniyyətinə və milli-mənəvi dəyərlərinə yüksək qiymət vermişdir: "Xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Xüsusən, başqa ölkələrdə yaşayan azərbaycanlılar.***

Ona görə də, mən arzu edərdim ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə dayaq olsunlar, bir-birinə yardım etsinlər, bir-birinin dərdinə yansınlar və bizim milli adət-ənənələrimizi, milli dəyərlərimizi birlikdə gözləsinlər, milli bayramlarımızı qeyd etsinlər. Təkcə müstəqillik bayramını, Novruz bayramını deyil, bütün başqa bayramları da qeyd etsinlər. Azərbaycan dilini yeni nəslə, uşaqlara çatdırmaq üçün müəyyən tədris imkanları yaratsınlar. Biz bu barədə kömək edəcəyik ki, bizdən sonra gələn nəsillər, sizin övladlarınız, bizim övladlarımız azərbaycançılığı daha da yüksəklərə qaldırsınlar, Azərbaycan dilini, milli-mənəvi dəyərlərimizi daim yaşatsınlar".

AMEA-nın müxbir üzvü, professor Vamis Məmmədəliyev "Heydər Əliyev zəkasının işığı və mənəvi dəyərlərimiz" adlı məqaləsində yazır: "Heydər Əliyev ensiklopedik biliyə malik böyük tarixi şəxsiyyət idi. O, Azərbaycan dövlətini qurdu, xalqı xilas etdi, ana dilimizin dövlət dili kimi mövqeyini möhkəmləndirdi. Milli ideologiyanı yaratdı. Azərbaycan elmini, mədəniyyətini, tarixini misilsiz dərəcədə zənginləşdirdi. Azərbaycanı sivil ölkələr sırasına çıxardı. İndi hər birimiz fəxrlə deyirik: Azərbaycan vətəndaşıyam! Müasir dünyada Azərbaycan deyəndə, ilk növbədə Heydər Əliyev xatırlanır. Heydər Əliyev deyəndə, Azərbaycan yada düşür.

Məhz Heydər Əliyevin təşəbbüsü və qətiyyəti sayəsində Mərkəzi Komitə o zaman Nizami irsinin öyrənilməsi, tədqiqi və nəşri barədə qərar qəbul etdi. Bu qərardan sonra Bakı Dövlət Universitetində "Nizami kabineti" açdıq. Alimlərimiz Nizaminin əsərlərinin lüğətini yaratdılar. Bu da şərqşünaslıq elmi sahəsində yeni istiqamət idi. Çox zaman "Gəncəvi" sözündən çıxış edib deyirik ki, Nizami Azərbaycan şairidir, buna elmi əsas lazımdır. Bundan da vacib Nizaminin əsərlərinin mətnidir. Bu dahi söz ustadı öz əsərlərində çoxlu türk sözləri işlədib. Onun əsərlərində türk ifadələri və türk cümlə quruluşu var. Nizamidə türk təfəkkürü var.

Heydər Əliyevin uzaqgörənliyi ilə o zamanlar qərara alındı ki, biz bu dahi sənətkarın Azərbaycan şairi olmasını sübut edək, dünya da bilsin ki, Azərbaycan belə korifeylər yetirib. Doğrudan da, Nizami yaradıcılığı üzərində aparılan iş zamanı alimlərimiz maraqlı faktlar ortaya çıxartdılar. Yəni bu söz sərrafı türkcə düşünüb, farsca yazıb. Nizaminin farsca işlətdiyi ifadələr türk sözlərinin tərcüməsidir. Bu, Nizaminin novatorluğu idı. Göründüyü kimi, bu istiqamətdə aparılan işlər elmə və ədəbiyyata böyük xidmət oldu.

Heydər Əliyevin dinə, mənəvi dəyərlərə, adət-ənənələrimizi həssas münasibəti də milli lider kimi Onun fəaliyyətində seçilən xüsusiyyət idi. Ömrü boyu xalqa bağlı olan bu böyük insan hələ SSRİ dövründə ateizmin və allahsızlıq siyasətinin tüğyan etdiyi vaxtlarda Azərbaycanda çox incə din siyasəti yeridirdi.

Qafqaz Müsəlmanları İdarəsi, məhz Heydər Əliyevin rəhbərliyi dövründə xeyli möhkəmləndi. Heydər Əliyevin dini idarələrə qayğısı olmasaydı, onları düzgün istiqamətləndirməsəydi, təbii ki, bu dirçəliş baş tutmazdı.

Heydər Əliyev əvvəllər zahirən büruzə verməsə də, həmişə dinə inanıb. Övladları evlənərkən, şeyx kəbin kəsib. Sovet İttifaqı dövründə bu, çox xatalı məsələ idi. Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katıbi, Siyasi Büronun üzvü övladlarını evləndirərkən, rəsmi nikahla yanaşı, dinimizin buyurduğu kimi, kəbin məsələsini də həyata keçirib. İndi bunları demək asandır. Amma ateizm dövründə çox riskli iş idi.

Akademik Zərifə xanımın dəfn mərasimini yada salaq. Siyasi Buronun üzvləri bir yanda sıraya düzülmüşdülər. Şeyx Allahşükür Paşazadə isə digər tərəfdə cənazə namazı qılırdı. Bunu o vaxtlar televizorda göstərdilər.

Hətta Siyasi Büronun üzvlərindən biri şeyxə yaxınlaşıb, əlindən tutub deyib: "Sən burada nə edirsən?" Heydər Əliyev dərhal "Onunla işiniz olmasın. O, nə etdiyini yaxşı bilir", - deyib.

Şəraitə baxın, bir yandan Siyasi Büronun üzvləri dövlət qaydası ilə dəfn mərasimini keçirmək istəyirlər, qarşı tərəfdən isə şeyx islam adəti ilə namaz qılır, Quran oxuyur, bunlar asan məsələ deyildi. Bunların hamısı Heydər Əliyevin çox ustalıqla həyata keçirdiyi incə din siyasətinin nəticəsi idi. Dövlət siyasətində və şəxsi həyat nümunəsində onun dinə münasibəti belə idi.

ULU ÖNDƏR Heydər Əliyev dinimizə və adət-ənənələrimizə həmişə hörmət edib. Din çox geniş məfhumdur... O, ikinci dəfə hakimiyyətə qayıdandan sonra ölkəmizdə dinə və mənəvi dəyərlərimizə münasibət kökündən dəyişdi.

Məhz Heydər Əliyevin uzaqgörən və düzgün siyasətinin nəticəsidir ki, Azərbaycanda dini zəmində heç bir narazılıq, narahatlıq olmayıb və olmayacaq da. Ümumiyyətlə, başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda xristianlar, yəhudilər, müsəlmanlar həmişə mehriban dostluq və əməkdaşlıq şəraitində yaşayıblar. Düzdür, çarizm dövründə milli zəmində hadisələr törədiblər. Ancaq Heydər Əliyev respublikada elə gözəl ab-hava yaradıb, elə incə siyasət yeridib ki, bizdə mövcud olan dini qurumlar dostluq telləri ilə bir-birinə möhkəm bağlanıb. Eyni amal, eyni arzu və istək onları birləşdirir. Budur siyasi müdrikliyin bəhrəsi".

Vasim Məmmədəliyev Heydər Əliyevin Azərbaycanın milli-mədəni dirçəlişində oynadığı rol haqqında yazır: "Ən əvvəl, xaricdən gələn alimlər, din xadimləri Heydər Əliyevin ensiklopedik biliyinə məftun oldular, Azərbaycanda islam mədəniyyətini əyani şəkildə hiss etdilər, gördülər. Bütün bunlar Azərbaycanda milli ideologiyanın, milli şüurun formalaşmasına, mənəvi dəyərlərimizin qorunmasına xidmət etmişdir.

Bunların ana xəttini milli ideologiya və milli şüur təşkil edir. Çünki din ali və yüksək mənəvi dəyəridir. Milli ideologiyanın formalaşmasında dini danmaq olmaz. Heydər Əliyev böyük dövlət xadimi və əvəzolunmaz siyasi rəhbər kimi bu məsələləri mükəmməl bilirdi. Heydər Əliyev cəmiyyətin idarə olunmasında gənclərə və milli kadrların hazırlanmasına da xüsusi qayğı göstərirdi. Bir anlıq 1970-1980-ci illərə qayıdaq. O vaxtlar Heydər Əliyevin təşəbbüsü ilə hər il SSRİ-nin böyük şəhərlərinə - Moskvaya, Sankt-Peterburqa, Kiyevə və başqa şəhərlərə oxumağa tələbələr göndərilirdi. Həm də elə ixtisaslar seçirdilər ki, Azərbaycanda ona tələbat vardı. Gəncləri yeni elm sahələrinə istiqamətləndirirdilər. Heydər Əliyev SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi və digər işçilərlə danışıqlar aparırdı. Azərbaycan gənclərinə imkan və güzəştli şərait yaradılırdı.

Gənclərin səviyyəsi, istedadı və qabiliyyəti əvvəlcədən müəyyən edilirdi. Bax, həmin dövrdə, məhz Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində Azərbaycanda ixtisaslı milli kadrlar ordusu yarandı. Onlar ən aparıcı sahələrə yönəldildi. Kibernetika, texnika, diplomatiya, riyaziyyat və fizika elmlərinin yeni sahələri ən sanballı mütəxəssislərlə təmin olundu.

Heydər Əliyev Azərbaycanın gələcək inkişafını həmin mütəxəssislərə etibar edirdi və onlara böyük ümidlər bəsləyirdi. Azərbaycan elminin bugünkü inkişafı, məhz Heydər Əliyevin o illərdə hazırladığı, yetişdirdiyi gənc kadrların fəaliyyəti ilə bağlıdır. İndi Azərbaycanın təhsili, mədəniyyəti, iqtisadiyyatı, mənəvi və siyasi həyatı sivil səviyyədədir.

Heydər Əliyev xalqın mənəvi sərvəti olan ana dilinin inkişafına, folklorumuzun, gözəl adətlərin yaşamasına böyük diqqət göstərirdi. Onun ana dilimiz barədə mülahizələri və təklifləri misilsizdir. "Ktiabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyində etdiyi çıxış folklorşünasları, ədəbiyyatşünasları, tarixçiləri, eləcə də, incəsənət xadimlərini heyrətə salmışdı. Heç bir mütəxəssis həmin cəhətləri Onun qədər dəqiq və incəliyi ilə belə təhlil edə bilməzdi.

Heydər Əliyevin zəngin irsinin qorunması, öyrənilməsi, ümumiyyətlə, günümüzün ən vacib məsələlərindən biridir.

Heydər Əliyev Azərbaycanda natiqlik məktəbi yaratdı. İdarəçilik məharəti, dövlətçilik bacarığı ilə bağlı Onun irsini öyrənmək müasirlərimiz üçün olduqca gərəklidir.

Bu baxımdan, Bakı Dövlət Universitetində Heydər Əliyev Məktəbi və Heydər Əliyev Muzeyi fəaliyyət göstərir. Hörmətli rektorumuz akademik Abel Məhərrəmovun yaaxından köməyi ilə gənclərimiz və müəllimlərimiz Heydər Əliyev irsini həvəslə öyrənirlər. Elmimizin, mədəniyyətimizin, mənəviyyatımızın inkişaf yollarını, yüksəlişimizin əsas amillərini Heydər Əliyevdən öyrənməliyik və öyrətməliyik.

Heydər Əliyev şəxsiyyəti barədə çox danışılıb. Bundan sonra daha çox deyiləcək. O, elə bir kamil, əzəmətli və uzaqgörən dahi şəxsiyyətdir. Elə bir zəngin məktəbdir ki, Onun haqqında, bütövlükdə söz danışmaq, Ona qiymət vermək çox çətindir. Hər bir sahənin mütəxəssisi yalnız öz ixtisasına uyğun Heydər Əliyevi öyrənə bilər. Bax, bunları düşünəndə, doğrudan da, belə bir şəxsiyyətin dünyadan getməsinə inana bilmirsən. Amma bu, danılmazdır ki, ölüm haqdır. Qurani-Kərimdə də deyilir ki, hər bir canlı ölümü dadacaqdır. Biz Allaha mənsubuq. Allaha tərəf qayıdacağıq.

Nə qədər ağır olsa da artıq bu böyük şəxsiyyət cismən yoxdur. Bu, tarixi itkidir. Heydər Əliyev kimi böyük şəxsiyyəti, görkəmli dövlət xadimini və dünya miqyaslı siyasətçini itirmək Azərbaycan üçün çox ağırdır. Təkcə Azərbaycan üçün yox, bütövlükdə Qafqaz regionu, türk dünyası, eləcə də, dünya siyasəti üçün böyük itkidir".

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 8 noyabr


## Yuxuda xoruldayanlar daha çox qəza törədir

Xoruldayan insanlar yuxuda dincələ bilmədikləri üçün nəqliyyatda diqqətləri dağılır və bu da yol qəzalarına səbəb olur.



Atatürk Universiteti Tibb Fakültəsi qulaq-burun-boğaz fundamental elm sahəsi üzrə tədris üzvü, dos, dr. Özgür Yörükün fikrincə, xoruldamanı gözardı etmək olmaz, çünki xoruldama bir çox ailə faciələrinin baş verməsinin səbəblərindən biridir. Xoruldamanın ciddi fikir verilməsi vacib olan bir narahatlıq olduğunu vurğulayan Yörük bunun yol qəzalarına, diqqət pozğunluqlarına, şəxsiyyət pozğunluqlarına və hətta psixi pozğunluqlara da yol aça biləcəyini qeyd edib.

Xoruladayan və nəfəsi kəsilən insanların daha çox yuxuya meyilli olduğuna diqqət çəkən Yörük bu barədə fikirlərini açıqlayıb: "Xoruldayan insan yuxusunu ala bilmir, yuxusuz yola çıxdıqda da diqqətiniz dağılmış halda avtomobil idarə edirsiniz. Yolda yuxulamayın səbəbləri ya hər hansı problemin olması, ya da xoruldadığı üçün nəfəsinin kəsilməsinə görə yuxusuz qalması ola bilər. Yuxulamaq bədənin nəfəs alması, dincəlməsi deməkdir. Sürücü isə xoruldadığı üçün dincələ bilmir. Bu halda bədənin də müqaviməti azalır və sükan arxasında özünü itirir, yol qəzalarına səbəb olur".

**Xoruldama kökəlməyə də səbəb olur**

Xoruldama xəstəliyi artıq çəkili insanlarda daha çox müşahidə olunur. Xoruldadıqca endrogen kortizon deyilən bir hormon ifraz olunur. Xəstə xoruldadıqca nəfəs kəsilmələri baş verdiyi və daha çox stressə girdiyi üçün daha çox kortizon ifraz olunur və xəstə kökəlir. Adətən xoruldayan xəstələrə arıqlamaları məsləhət görülür.

## Arıqlama çayları ürəyin dayanmasına səbəb ola bilər

İnternet vasitəsilə asanlıqla satın alına bilən və əlverişli qiymətləri səbəbilə çox üstünlük verilən arıqlama çayları təhlükə saçır.



Hələ bir neçə il bundan əvvəl Türkiyə Səhiyyə Nazirliyi arıqlama çaylarında sibutramin maddəsinə rast gəlindiyini qeyd edərək bu məhsullardan istifadə olunması ilə bağlı xəbərdarlıq edib. İndi məlum olub ki, sibutramin maddəsi həddindən artıq istifadə olunduqda ürək əzələlərinə təsir edir və nəticədə ürək fəaliyyətinin dayanmasına yol açır.

Nazirlik öz hesabatında çəki itkisini asanlaşdırdığı iddiası ilə satışa çıxarılan 50-dən artıq tək formada istifadə olunan arıqlama məhsulu və 125-dən artıq kombinasiya olunmuş məhsulun olduğunu qeyd edib. Bu məhsulların qablaşdırmasının üzərində "yağ əridicilər", "diyet çayı", "metabolizm sürətləndirici", "yağlanmanın qarşısını alan" kimi ifadələrin yer aldığı və istifadəsinin ölümcül nəticələrə gətirib çıxara biləcəyi vurğulanıb.

**Siyahıda 72 təhlükəli məhsul var**

ABŞ Qida və Dərman İdarəsi və Sağlamlıq Nazirliyinin yayımladığı hesabatda 72 təhlükəli məhsulun adı sadalanıb. Bu məhsullardan ən çox istifadə olunanları bunlardır: "2 Day Diet, 2x Powerful Slimming, 3 Days Fit, 5x Imelda Perfect Slimming, 7 Day Herbal Slim, 8 Factor Diet, Eight Factor Diet, 21 Double Slim, 24 Hours Diet, 999 Fitness Essence, Cosmo Slim, Extrim Plus 24 Hour Reburn, Fatloss Slimming, JM Fat Reducer, Lida DaiDaihua".

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin II kurs tələbəsi Əhmədzadə Fatima Azər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin IV kurs tələbəsi Nəsibova Güldanənin tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Azərbaycanın kişi şahmatçılarından ibarət yığması Avropa çempionu olub



Yunanıstanın Krit adasında keçirilən Avropa komanda çempionatında Azərbaycanın kişi şahmatçılarından ibarət yığması qalib olub.

AZƏRTAC xəbər verir ki, bu gün keçirilən sonuncu - doqquzuncu turda komandamızın Ukrayna yığması ilə oyunu 2:2 hesabı ilə yekunlaşıb. Azərbaycan-Ukrayna matçında Şəhriyar Məmmədyarov-Pavel Elyanov, Teymur Rəcəbov-Yuri Krivoruçko, Arkadi Naydiç-Ruslan Panomaryov və Rauf Məmmədov-Yuri Kuzubov görüşləri heç-heçə yekunlaşıb. Ukrayna komandası ilə heç-heçə oynayan şahmatçılarımız turniri 14 xalla başa vurublar.

Sonuncu turda Almaniya yığmasını 3:1 hesabı ilə məğlub edən Rusiya komandası da xallarını 14-ə çatdırıb. Beləliklə, əlavə əmsallara görə yekunda Azərbaycan yığması turnir cədvəlində ilk yeri tutaraq Avropa çempionu adını qazanıb. Rusiya ikinci, Ukrayna komandası üçüncü yeri tutub.




## Azərbaycan-Almaniya oyununu qazaxıstanlı hakimlər briqadası idarə edəcək

İyirmi bir yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının seçmə qrup mərhələsi çərçivəsində noyabrın 9-da Azərbaycan və Almaniya yığmaları arasında keçiriləcək oyunun hakimləri müəyyənləşib. AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, görüşün baş hakimi qazaxıstanlı Daniyar Saxi idarə edəcək. Ona həmyerliləri Alibek Aubakirov və Evgeni Belski kömək edəcəklər. Dördüncü hakim funksiyasını Bulat Sariyev yerinə yetirəcək. Matç "Dalğa Arena"da saat 18:00-da start götürəcək.

## Kyokşin karate üzrə Avropa çempionatında ölkəmizi yeddi idmançı təmsil edəcək




Noyabrın 11-də Polşanın Kielse şəhərində şəhərində karatenin kyokşin və şinkyokşin növləri üzrə kadetlər, 16 və 22 yaşadək idmançılar arasında Avropa çempionatı keçiriləcək.

Azərbaycan Kyokşin Karate Federasiyasından (AKKF) AZƏRTAC-a bildirilib ki, çempionatda milli federasiyanın vitse-prezidenti Allahverdi Rüstəmovun rəhbərliyi altında ölkəmizi qızların yarışında Solmaz Zeynallı (60 kq), oğlanların mübarizəsində isə Niyaməddin Əliyev (65 kq), Eltac Hümbətov, Kərəm Fərhadov (hər ikisi 75 kq), Kərim Eyyubov (80 kq), Rüfət Babayev, Turan Şirinov (hər ikisi 85 kq) təmsil edəcəklər. Turnirə Azərbaycandan olan beynəlxalq dərəcəli hakimlər Mübariz Məlikov, Qabil Sayadov və Mehdi Əhmədov dəvət alıblar.



## Joze Maurinyo mövsümün sonunda "Mançester Yunayted"i tərk edəcək?

İngiltərənin "Mançester Yunayted" komandasının baş məşqçisi Joze Maurinyo mövsümün sonunda klubdan ayrıla bilər. Xarici KİV-lər xəbər verir ki, portuqaliyalı mütəxəssis klub rəhbərliyinin qərarlarından narazıdır.

Baş məşqçini "Çelsi"nin keçmiş yarımmüdafiəçisi Nemanja Matiçin keçid prosesinin təxirə salınması məyus edib. O, həmçinin "qırmızı şeytanlar"ın heyətə yeni oyunçu qatmamasından narazıdır. Əvvəllər Mourinyonun növbəti iş yerinin PSJ ola biləcəyi bildirilib. Paris klubu artıq portuqaliyalı məşqçinin meneceri ilə danışıqlar aparıb. Maurinyonun İngiltərə klubu ilə müqaviləsi 2019-cu ilədəkdir. Hazırda "Mançester Yunayted" İngiltərə çempionatında 11 turdan sonra ikinci yerdədir.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500